AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 19 (1419), 7 - 13 may 2019-cu il

Qəzet 2001-ci ildən çıxır.




## Bakıda Avropa Gənclər Olimpiya Festivalı ilə bağlı tədbir keçirilib

Mayın 6-da Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalının Əməliyyat Komitəsi qitə ölkələrinin Milli Olimpiya komitələrinin nümayəndə heyətlərinin rəhbərləri üçün seminar təşkil edib. Tədbirdə Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsi baş katibinin müavini Azər Əliyev, eyni zamanda, yarışa hazırlıq işləri ilə daha yaxından tanış olmaq üçün Bakıda səfərdə olan Avropa Olimpiya Komitələrinin (AOK) Əlaqələndirmə Komissiyasının rəhbəri, Serbiya Milli Olimpiya Komitəsinin baş katibi Corce Visaçki və təşkilat komitəsinin üzvləri iştirak ediblər. Seminara Avropanın 40 ölkəsinin Milli Olimpiya komitələrinin 70 təmsilçisi, Avropa Olimpiya Komitəsinin nümayəndələri və AOK-un Bakı-2019 üçün xüsusi olaraq yaratdığı Əlaqələndirmə Komissiyasının üzvləri də qoşulublar.

(ardı 2-ci səhifədə)

## Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Bakı Marafonu-2019"a yekun vurulub

Mayın 5-də Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Bakı Marafonu-2019" keçirilib.

Marafonda Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva da iştirak edib.

"Küləyə qalib gəl" şüarı altında artıq dördüncü ildir təşkil olunan marafon Dövlət Bayrağı Meydanından start götürərək, Bakı Olimpiya Stadionunadək 21 kilometr məsafəni əhatə edib.

Layihə idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək və insanları xeyirxah amallar ətrafında bir araya gətirmək məqsədi daşıyıb. Yarışda 16 yaşdan yuxarı şəxslər əvvəlcədən qeydiyyatdan keçərək iştirak ediblər.

(ardı 2-ci səhifədə)



## XV Avropa Gənclər Olimpiya Festivalına 75 gün qalır





## II Avropa Oyunlarına 45 gün qalır

## Bakıda keçirilən "sürət formulası" dünya mətbuatının diqqətindən yayınmır

Səh. 6

## Olimpizm




### BOK Notr-Dam kilsəsinin bərpasına 500 min avro verəcək

Beynəlxalq Olimpiya Komitəsi (BOK) Parisin Notr-Dam kilsəsinin bərpası üçün 500 min avro yardım etməyi qərara alıb. Bu barədə BOK prezidenti Tomas Baxın Paris-2024 Olimpiya Oyunları Təşkilat Komitəsinin Tom Estangeyə göndərdiyi məktubda bildirilir.

Tomas Bax məktubunda yazıb: "Kilsədə bərpa işlərinin Paris-2024 Olimpiadasına qədər yekunlaşdırılması bizim üçün əlavə motivasiya rolunu oynayacaq. Bütün Olimpiya hərəkatı və xüsusi ilə BOK olimpiada ərəfəsində kilsənin yanmasından təəssüflənir".

Xatırladaq ki, Parisin Notr-Dam kilsəsində güclü yanğın olub. Fransa prezidenti kilsənin yanmış hissəsini 5 il ərzində bərpa etməyə söz verib.

### Boksun taleyi həll olunacaq

Beynəlxalq Boks Federasiyası (AIBA) Beynəlxalq Olimpiya Komitəsinin (BOK) etimadını itirdiyi təqdirdə ona alternativ olan təşkilat Tokioda keçiriləcək 2020-ci il Olimpiya Oyunlarında boks turnirini təşkil edə bilər.

"Reuters" agentliyinin yaydığı xəbərə görə, bunu BOK-un prezidenti Tomas Bax bəyan edib.

BOK ötən il noyabrın 30-da Tokioda keçiriləcək Olimpiya Oyunlarında boks turnirinin keçirilməsi planlarını "dondurub".

Qərar AIBA-ya qarşı tədqiqatın başlanmasından sonra qəbul olunub. Tomas Bax deyib: "Biz boksun Olimpiya idman növü olmasını istəyirik və Tokio Olimpiya Oyunlarında boks turniri keçirməyə hazırlaşırıq. Əsas məsələ kiminlə qarşılaşacağımız və onu kimin təşkil edəcəyidir. Bu, AIBA olacaq, yaxud biz başqa təşkilat axtarmalı olacağıq? Hər şey AIBA-ya qarşı aparılan təhqiqatın nəticələrindən asılı olacaq".

BOK prezidenti qeyd edib ki, 2020-ci ildə Tokioda keçiriləcək Olimpiya Oyunlarında boks turnirinin keçirilməsi məsələsi BOK-un mayın 22-də Lozannada olacaq İcraiyyə Komitəsinin iclasında həll ediləcək. O, əlavə edib: "İdman tədbirinin keçirilməsi raketqayırma deyil, bu səbəbdən düşünürəm ki, biz buna nail olacağıq".

## Anons

*Romada ikinci Avropa Oyunlarının "Sülh məşəli" estafeti start götürüb* — Səh. 2

Bodibildinqçimiz Avropa çempionatının bürünc medalına layiq görülüb — Səh. 2

Pouerliftinq idman növü üzrə Paralimpiya milli komandasının üzvləri ilə görüş olub — Səh. 3

*V İslam Həmrəyliyi Oyunlarına Konya ev sahibliyi edə bilər* — Səh. 3

*Finalda Avropa nəzərə alındı* — Səh. 7

## ÇL 1/2 final

**"Liverpul" - "Barselona"**

(İngiltərə) (İspaniya)

7 may. İngiltərə. "Enfild Road". Saat 23:00.

**"Ayaks" - "Tottenhem"**

(Hollandiya) (İngiltərə)

8 may. Hollandiya. "Yohan Kruiff" stadionu. Saat 23:00.




# Bakıda Avropa Gənclər Olimpiya Festivalı ilə bağlı tədbir keçirilib

(əvvəli 1-ci səhifədə)

Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov tədbirdə çıxış edərək Avropa ölkələrinin nümayəndə heyətlərinin rəhbərlərinin Bakıya səfərinin əhəmiyyətini vurğulayaraq deyib: "Avropa Gənclər Olimpiya Festivalı bütün qitəni birləşdirən tarixi idman bayramı olacaq. Avropa Milli Olimpiya komitələrinin nümayəndə heyətlərinin rəhbərlərini Bakıda görməyimə şadam. Bu gün bu seminarda idman arenalarının yarışlara hazırlığı, Atletlər kəndindəki son durum, təhlükəsizlik, antidopinq və digər mühüm məsələlər müzakirə edilir. Onların hər biri yarışların yüksək səviyyədə keçirilməsində müstəsna rol oynayır. Ötən dövrdə bizim Avropa ölkələrinin Milli Olimpiya komitələri ilə sıx işbirliyimiz olub və onlara hər bir dəstək göstərilib". Avropa Olimpiya Komitəsinin Əlaqələndirmə Komissiyasının rəhbəri Corce Visaçki seminarın Festivala hazırlıq prosesində əməkdaşlığı daha da gücləndirəcəyinə əminliyini bildirərək deyib: "Biz Avropa Gənclər Yay Olimpiya Festivalının ən əhəmiyyətli tərəfdaşları - Avropa Milli Olimpiya komitələrinin nümayəndələri ilə birgə gözəl Bakıya bir daha gəlməyimizdən böyük məmnunluq duyuruq. Avropa Olimpiya Komitəsi bu görüşlərin məhsuldar olacağına inanır".

* * *

Bakıda keçiriləcək Avropa Gənclər Olimpiya Festivalının medalları mayın 6-da ictimaiyyətə təqdim olunub. Mərasimdə Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Avropa Olimpiya Komitəsinin (AOK) Əlaqələndirmə Komissiyasının rəhbəri, Serbiya Milli Olimpiya Komitəsinin baş katibi Corce Visaçki və digərləri iştirak ediblər. Üzərində Bakı-2019-un loqosu əks olunmuş qızıl, gümüş və bürünc medalların dizaynı Bakının irs və mədəniyyətini, eləcə də, birlik və dostluq konsepsiyasını birləşdirən təsvirlərə əsaslanır. Medalda od və Azərbaycan paytaxtının müasir möhtəşəm memarlıq abidələrindən olan Alov qüllələrinin və Heydər Əliyev Mərkəzinin təsvirləri yer alıb. Medalın digər üzündə isə Avropa Olimpiya Komitəsinin emblemi əks olunub. Mükafatlar"Azərsuvenir" MMC tərəfindən Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalının Əməliyyat Komitəsinin dizayn komandası ilə əməkdaşlıq şəraitində hazırlanıb.

Medalların dizaynından danışan gənclər və idman naziri Azad Rəhimov vurğulayıb: "Festivalın başlanmasına qısa vaxtın qaldığı dövrdə medalların təqdimatı çox önəmli hadisədir. Medallar festivalın üç vacib dəyərini - yenilik, keyfiyyət və şəffaflığı təcəssüm etdirir".

Azad Rəhimov hədiyyə medal dəstini Avropa Olimpiya



Komitəsi Əlaqələndirmə Komissiyasının rəhbəri, Serbiya Milli Olimpiya Komitəsinin baş katibi Corce Visaçkiyə təqdim edib. Corce Visaçki bildirib: "Bakıda keçiriləcək Avropa Gənclər Olimpiya Festivalının rəsmi medallarını görməkdən böyük məmnunluq hissi duyuruq. Hər bir idmançı üçün mükafat onun uğur və qələbələrinin rəmzi olaraq əbədi qalır. Biz bütün idmançıların Olimpiya dəyərlərini bölüşdüyünə və onların bir daha Azərbaycandan öz ölkələrinə uğurlarından qaynaqlanan böyük sevinc hissini, həmçinin dostluq, dözümlülük və sülh mesajlarını aparacaqlarına inam bəsləyirik".

* * *

Bakıda keçiriləcək Avropa Gənclər Olimpiya Festivalı bizim üçün çox önəmli tədbirdir. Yarışa 14-18 yaşlı idmançılar qatılacaqlar. Belə kompleks idman yarışları zamanı Atletlər kəndində və yarışların keçirildiyi qurğularda unudulmaz abhava olur. Bakı-2019 gələcəkdə Olimpiya Oyunlarında iştirak edəcək gənc idmançılar üçün böyük təcrübə olacaq".

Bunu mayın 6-da Bakıda Avropa Gənclər Olimpiya Festivalının Əməliyyat Komitəsinin Avropa ölkələrinin Milli Olimpiya komitələrinin nümayəndə heyətlərinin rəhbərləri üçün təşkil etdiyi seminardan sonra keçirilən mətbuat konfransında Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov deyib.

Nazir bildirib ki, festivalda əsasən komanda idman növləri üzrə yarışlar olacaq. İstəyirik ki, idmançılarımız komanda növlərində də öz bacarıqlarını nümayiş etdirsinlər. Bakıda təşkil olunan ilk Avropa və IV İslam Həmrəyliyi oyunlarından xeyli sayda avadanlıq saxlamışıq. Könüllülər yarışa tam hazırdır. Müraciət edən 12 mindən çox könüllünün 8 mini müsahibədən keçib və yarış üçün 2500 nəfər seçilib. Bu günədək 2700 idmançı və 1300 nümayəndə iştirakını təsdiqləyib. Hakim və digər qonaqlarla birlikdə 5 min nəfərin Bakıya gələcəyini gözləyirik.

Avropa Olimpiya Komitəsinin Əlaqələndirmə Komissiyasının rəhbəri, Serbiya Milli Olimpiya Komitəsinin baş katibi Corce Visaçki festivala hazırlıq işini yüksək qiymətləndirib. Dörd il əvvəl birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkil olunduğunu vurğulayan C.Visaçki bu festivalın da uğurla keçiriləcəyinə əminliyini bildirib. Qeyd edib ki, belə tədbirlər Azərbaycanı dünyada təbliğ üçün yeni imkanlar açır. Belə uğurlu layihənin bir parçası olmaq mənim üçün qürurvericidir.

Sonra festivaldan bəhs edən videoçarx nümayiş olunub.

Qeyd edək ki, Avropa Gənclər Olimpiya Festivalı iyulun 21-27-də Bakıda keçiriləcək. Atletlər idmanın 10 növü - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo üzgüçülük, tennis, voleybol və güləş yarışlarında qüvvələrini sınayacaqlar. Festival zamanı 12 idman obyektində 2500-dən çox könüllü fəaliyyət göstərəcək.

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Bakı Marafonu-2019"a yekun vurulub

(əvvəli 1-ci səhifədə)

Hər il daha çox iştirakçı sayı ilə diqqət çəkən marafonda bu dəfə 22 min 320 şəxs qeydiyyatdan keçib. Yarışa Azərbaycan vətəndaşları ilə yanaşı, bir sıra digər ölkələrdən də iştirakçılar qatılıblar. Marafonda ABŞ, Avstriya, BƏƏ, Böyük Britaniya, Cənubi Afrika, Fransa, İran, Rusiya, İspaniya, İtaliya, Türkiyə, Ukrayna, Uqanda və digər ölkələrdən qoşulanlar olub. Eyni zamanda, Azərbaycanda yaşayıb-işləyən 300-dən çox əcnəbi, o cümlədən BƏƏ, Çin, Hindistan, İraq, İran, Qazaxıstan, Litva, Mərakeş, Özbəkistan, Türkiyə, Türkmənistan və digər ölkələrin Azərbaycandakı səfirlik və diplomatik nümayəndəliklərinin təmsilçiləri marafonçular sırasında olub.

Marafonda dövlət rəsmiləri, ictimai-siyasi xadimlər, tanınmış mədəniyyət və incəsənət adamları, idmançılar iştirak ediblər. Eyni zamanda, müxtəlif təşkilat və şirkətin təmsilçiləri korporativ iştirakçı kimi qeydiyyatdan keçiblər.

Builki marafona Heydər Əliyev Fondunun dəstəyi ilə protezlərlə təmin olunmuş bir qrup Qarabağ müharibəsi əlili də qoşulub.

Azərbaycanın Astara, Gəncə, Qəbələ, Quba, Qusar, Lənkəran, Mingəçevir, Naxçıvan, Sumqayıt, Şamaxı, Şəki, Oğuz, Zaqatala və digər bölgələrindən də yarışda iştirak edənlər olub.

Builki marafon bir sıra yeniliklərin tətbiqi ilə yadda qalıb. Bunlardan ən əhəmiyyətlisi ilk dəfə çip (xronometraj) sisteminin tətbiq olunmasıdır. Belə ki, yarışçıların qaçış nömrələrinin üzərinə xüsusi cihaz - çip yerləşdirilib. Sistemin tətbiqi marafonda iştirak edən hər kəsin marşrutboyu göstəricilərini detallı şəkildə görmək, finiş xəttini keçərkən göstərdiyi nəticəni izləmək və iştirakçıya elektron sertifikat əldə etmək imkanı qazandırıb.

Marafonun startında ilk dəfə olaraq "məşq zonası" yaradılıb və səhnədən isinmə hərəkətləri nümayiş etdirilib.

Marşrutboyu müxtəlif maraqlı əyləncəli proqramlar təqdim olunub, marafonçuları DJ və aparıcılar, barabançılar müşayiət edib.

İştirakçıların özlərinin də marafona maraqlı hazırlıqları diqqət çəkib. Belə ki, yarışçılar müxtəlif maraqlı kostyumlarda marafona özünəməxsus rəng qatıblar.

Bakı Olimpiya Stadionunda toplaşan azarkeşlər "Küləyə qalib gəl"ənləri dəstəkləyiblər. Yarışın təltifetmə mərasimi də Bakı Olimpiya Stadionunda olub. "Bakı Marafonu 2019"un qalibləri iki kateqoriya üzrə müəyyən olunub. Kişilər arasında uqandalı atlet İsmail Ssenyange finiş xəttinə birinci çatıb. İran təmsilçisi Məhəmməd Cəfər Moradi ikinci, həmyerlimiz Elman Abışov isə üçüncü olub. Qadınların arasında isə ukraynalı Valentina Poltavskaya, şotlandiyalı Suzanne Matonti və Azərbaycan təmsilçisi Anna Yusupova müvafiq olaraq I-III yerləri tutublar.

Kişi və qadın kateqoriyalarının hər birində ilk yerin sahibi 3000, ikinci yeri qazanan 2000, üçüncü yerə çıxan isə 1000 manat məbləğində mükafat və hədiyyələrlə, eləcə də, medal və sertifikatlarla təltif olunublar.

Bundan əlavə, marafonun eksklüziv tərəfdaşı və sponsorları iştirakçılara müxtəlif nominasiyalar üzrə bir sıra mükafatlar təqdim ediblər. Qadın və kişi kateqoriyalar üzrə finiş xəttini ilk keçən tələbələr Parisdə Disneylenddə tətil, korporativ iştirakçılar isə İstanbul marafonuna qeydiyyat və gediş-dönüş biletləri qazanıblar.

Marafon iştirakçısı olan Azərbaycan vətəndaşlarına bir neçə nominasiyada mükafatlar təqdim olunub. Qadın və kişi kateqoriyası üzrə finiş xəttini keçən ilk Azərbaycan vətəndaşları Gürcüstanda keçiriləcək "Wings for Life World Run 2020" marafonunda iştirak etmək hüququ əldə ediblər. Bundan əlavə, finiş xəttini ilk keçən 50 yaşdan yuxarı Azərbaycan vətəndaşlarına (qadın və kişi kateqoriyası üzrə), həmçinin finişə çatmış ilk 5 azərbaycanlı xanıma müxtəlif hədiyyələr verilib.

Finiş xəttini ilk keçən maraqlı kostyumlu marafonçu, 10 xarici marafonçu, 3 xanım nominasiyalar üzrə mükafatlandırılıb.

Həmçinin martın 4-dən mayın 1-dək marafonda iştirak üçün qeydiyyatdan keçənlər arasında lotereyanın qalibi olmuş iki nəfərə də hədiyyə təqdim olunub.

Bundan əlavə, finiş xəttini keçən ilk 1000 iştirakçı "Bakı Marafonu-2019"un xüsusi medalı ilə təltif edilib.

"Bakı Marafonu-2019"un eksklüziv tərəfdaşı "Azercell Telekom" şirkətidir.

"Bakı Marafonu-2019"dan toplanan vəsait Heydər Əliyev Fondunun valideyn himayəsindən məhrum olan uşaqlarla bağlı layihəsinə yönəldiləcək.

Xatırladaq ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Küləyə qalib gəl" şüarı altında Bakıda ilk marafon 2016-cı il mayın 1-də, ikinci yarımarafon 2017-ci il aprelin 30-da, üçüncü yarımarafon isə 2018-ci il mayın 13-də keçirilib. Bu layihə region sakinləri tərəfindən böyük marağa səbəb olduğundan 2017-ci il sentyabrın 17-də Gəncədə də yarımarafon təşkil edilib.

# Romada ikinci Avropa Oyunlarının "Sülh məşəli" estafeti start götürüb

Romada ikinci Avropa Oyunlarının "Sülh məşəli" estafeti start götürüb.

İkinci Avropa Oyunlarının təşkilat komitəsinin saytına istinadla xəbər verilir ki, mərasim yaşı iki min ildən çox olan qədim "Ara Pacis Museum" kompleksində baş tutub.



Məşəlin alovlandırılması mərasimindən əvvəl mətbuat konfransı keçirilib. Tədbirdə iştirak edən ikinci Avropa Oyunlarının təşkilatı fondunun rəhbəri Georgi Katulin, Belarusun idman və turizm naziri Sergey Kovalçuk, Avropa Olimpiya Komitəsinin (AOK) prezidenti Janez Koçijançiç, AOK-un Əlaqələndirmə Komissiyasının sədri Spiros Kapralos çıxış edərək tədbirin əhəmiyyətini vurğulayıblar.

Yeddi min kilometrdən çox yol qət edəcək məşəlin ilk daşıyıcısı Olimpiya çempionu Yuliya Nesterenko olub. Daha sonra məşəl Belarus alpinistləri tərəfindən Avropanın ən yüksək nöqtəsinə - Alp dağlarındakı Monblan zirvəsinə qaldırılacaq.

Paslanmayan poladdan düzəldilən Olimpiya məşəlinin çəkisi 1,7 kiloqram olub. Təşkilatçılar bildiriblər ki, bu çəkini uzun məsafəyə əldə daşımaq çətin olduğundan onu velosiped, yaxud əlil arabasına bərkitmək nəzərdə tutulur. Məşəl dünya standartlarına uyğun olaraq 15 dəqiqə ərzində yanır ki, bu da estafeti əvəz edənlərə lazımi məsafəni qət etməyə imkan verir. Olimpiya məşəli Avropanın 8 ölkəsindən keçərək 50 gündən sonra - iyunun 21-də Minskin "Dinamo" stadionunda keçiriləcək təntənəli mərasimdə alovlandırılacaq.

* * *

Minskdə keçiriləcək ikinci Avropa Oyunlarında Azərbaycanı 13 cüdoçu təmsil edəcək.

Yarışda kişi cüdoçularımızdan Orxan Səfərov, Kəramət Hüseynov (60 kq), Nicat Şıxəlizadə (66 kq), Rüstəm Orucov, Hidayət Heydərov (73 kq), Məmmədəli Mehdiyev (90 kq), Elmar Qasımov, Zelim Kotsoyev (100 kq), Uşangi Kokauri (+100 kq) mübarizə aparacaqlar. Qadınların yarışlarında isə Aişə Qurbanlı (48 kq), Gültay Məmmədəliyeva (52 kq), İçinxorloo Münxtsedev (57 kq) və İrina Kindzerska (+ 78 kq) qüvvələrini sınayacaqlar.




# Bodibildinqçimiz Avropa çempionatının bürünc medalına layiq görülüb

Azərbaycan millisi İspaniyanın Santa-Susanna şəhərində keçirilən bodibildinq üzrə Avropa çempionatında ilk medalını qazanıb.

Millimizin üzvü Fərhad Quliyev klassik bodibildinq yarışlarında bürünc medala sahib olub.

Qırx ölkədən mindən artıq idmançının iştirak etdiyi çempionatda millimiz 8 idmançı ilə təmsil olunub.



## Pouerliftinq idman növü üzrə Paralimpiya milli komandasının üzvləri ilə görüş olub

Milli Olimpiya Komitəsinin (MOK) baş katibinin müavini, Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyev mayın 2-də ölkəmizin pouerliftinq idman növü üzrə Paralimpiya milli komandasının üzvləri ilə görüşüb.

MOK-da keçirilən görüşdə Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov, birinci vitse-prezident Natiq Qasımov, baş katib Kamal Məmmədov, pouerliftinq komandasının baş məşqçisi İlqar İbişov, komandanın kapitanı Elşən Hüseynov, komandanın üzvləri Pərvin Məmmədov, Şamo Aslanov və Nurlan Babacanov iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Azər Əliyev pouerliftinq üzrə Paralimpiya yığmasının Macarıstanın Eger şəhərində keçirilən dünya kubokundakı uğurlu çıxışını yüksək qiymətləndirib. O, üç qızıl və bir bürünc medalla komandamızın kişilər arasında birinci yer tutmasını xatırladıb.

Pouerliftinqin olduqca ağır idman növü olduğunu qeyd edən MOK-un rəsmisi bildirib ki, bu idman növündə əzmli məşqlər önəmlidir.

Komandamıza uğurlar arzulayan A.Əliyev bildirib ki, əsas hədəf gələn il Tokioda keçiriləcək Yay Paralimpiya Oyunlarıdır.

Daha sonra AMPK-nın prezidenti İlqar Rəhimov paralimpiyaçılara göstərdiyi dəstəyə görə A.Əliyevə minnətdarlığını bildirib. Onun sözlərinə görə, bu, artıq pauerliftinqçilər ilə ikinci görüşdür. "Bundan əvvəl A.Əliyev AMPK-da pouerliftinq üzrə Paralimpiya milli komandasının üzvləri ilə görüşüb. Bu görüş idmançılarımız üçün böyük stimul oldu. Onlar həmişə sizin dəstəyinizi öz üzərilərində hiss edirlər. Fürsətdən istifadə edərək AMPK adından paralimpiyaçılarımızın dostu Prezident İlham Əliyevə göstərdiyi diqqət və qayğıya görə minnətdarlığımızı bildiririk", - deyə İ.Rəhimov vurğulayıb.

İlqar Rəhimov qeyd edib ki, idmançılarımızın Macarıstanda keçirilən dünya kubokunda uğurlu çıxışı tarixi hadisədir. O, vurğulayıb ki, ilk dəfədir böyük komanda ilə belə mötəbər beynəlxalq yarışda çıxış edən komandamızın üç üzvü qızıl, bir üzvü isə bürünc medalla qayıdır.

Daha sonra İ.Rəhimov mayın 13-14-də paytaxtımızda keçiriləcək paracüdo üzrə beynəlxalq Qran-Pri yarışının medallarının suvenirini Azər Əliyevə təqdim edib.

Pouerliftinq üzrə Paralimpiya milli komandasının baş məşqçisi İlqar İbişov və komandanın kapitanı Elşən Hüseynov da göstərdiyi dəstəyə görə A.Əliyevə minnətdarlıq ediblər. Bu dəstəyin idmançılarımızı yeni qələbələrə ruhlandırdığı bildirilib.

## V İslam Həmrəyliyi Oyunlarına Konya ev sahibliyi edə bilər

Türkiyənin Konya şəhərində İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) Əlaqələndirmə Komissiyasının növbəti iclası keçirilib.




İclasda Türkiyənin Gənclər və İdman Nazirliyinin rəsmiləri, şəhər bələdiyyəsinin sədri, Türkiyənin idman federasiyalarının prezidentləri və İHİF-nin Əlaqələndirmə Komissiyasının üzvləri iştirak ediblər. İclasa İHİF İcraiyyə Komitəsinin və Əlaqələndirmə Komissiyasının üzvü, qadın və idman komitəsinin rəhbəri Könül Nurullayeva da qatılıb.

Tədbirdə V İslam Həmrəyliyi Oyunlarının keçirilmə tarixi, idman proqramı, oyunların rəsmi loqo və maskotu, veb-səhifənin hazırlanması, ümumi qaydalar, 2021-ci ilədək iş planı və s. məsələlər müzakirə edilib. Bununla yanaşı, Oyunların ev sahibliyi hüququnun İstanbuldan Konyaya verilməsi məsələsi də müzakirə edilib. Habelə İHİF İcraiyyə Komitəsinin 31-ci iclasının və 11-ci Baş Assambleyasının bu il Türkiyədə keçirilməsi haqda qərar qəbul olunub.

K.Nurullayeva V İslam Həmrəyliyi Oyunları ərəfəsində Türkiyədə "Qadın: Cəmiyyətin tərkib hissəsi", "Qadın və idmanda həmrəylik konfransı" mövzularında silsilə tədbirlərin keçirilməsi barədə təklif irəli sürüb.

Əlaqələndirmə Komissiyasının üzvləri üçün Konyada idman obyektlərinə baxış təşkil edilib.

Qeyd edək ki, Bakı 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına yüksək səviyyədə ev sahibliyi edib. Oyunlarda 56 ölkədən 3 mindən çox atlet idmanın 21 növü üzrə mübarizə aparıb. Mötəbər turnirdə 75 qızıl, 50 gümüş və 37 bürünc medal qazanan Azərbaycan millisi birinci olub.



## Velosipedçimiz Tokio 2020-yə ilk lisenziya xalını qazanıb

Türkiyədə Beynəlxalq Velosipedçilər İttifaqının 2.2 kateqoriyalı "Tour of Mesopotamia" yarışına yekun vurulub. 4 mərhələdən ibarət velotur Elit yığma komandamızın üzvü Elçin Əsədov üçün uğurlu nəticə ilə yadda qalıb.

Yarış mərhələlərində müvafiq olaraq 11, 10, 13 və 29-cu olan təmsilçimiz bununla da ümumi təsnifatda 10-cu yeri tutub və ölkə reytinqinə Tokio-2020 Yay Olimpiya Oyunları üçün 3 lisenziya xalı qazandırıb. Qeyd edək ki, Beynəlxalq Velosipedçilər İttifaqının reqlamentinə əsasən, olimpiadaya lisenziya xalları verən yarışlar 2019-cu ilin oktyabr ayınadək davam edəcək.

## Güləşçilərimiz Dağıstandan bir dəst medalla qayıdıblar

Dağıstanın Kaspiysk şəhərində Əli Əliyevin xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə turnir başa çatıb.

Olimpiya, dünya və Avropa çempionu Şərif Şərifov beynəlxalq turnirin baş mükafatını qazanıb. Finaladək Xox Xuqayev (Rusiya), Ömərhacı Məhəmmədov (Belarus), Tajudin Muxtarov (Rusiya) və Batırbek Tsakulova (Rusiya) qalib gələn Şərif Şərifov (92 kq) son görüşdə də sevinən tərəf olub.

Həlledici qarşılaşmada Rusiyanın daha bir təmsilçisi Əlixan Cəbrayılovu 7:4 hesabı ilə məğlub edən güləşçimiz Dağıstanda himnimizi səsləndirib.

Gitinoməhəmməd Hacıyev (70 kq) də finaladək irəliləyib. O, növbə ilə Anzor Zakuev, Ruslan Boqatıryov və Ramazan Ramazanovu (hamısı Rusiya) üstələyib. Son görüşdə yerli idmançı Razambek Camalova uduzan G.Hacıyev gümüş medalı boynundan asıb.

Digər təmsilçimiz Nurməhəmməd Hacıyev isə bürünc medal qazanıb. Beləliklə, yığmamız Dağıstandan vətənə bir dəst medalla qayıdıb.

## Aerobika üzrə dünya çempionatı gələn il Bakıda keçiriləcək

Bakı 2020-ci ildə aerobika gimnastikası üzrə dünya çempionatına ev sahibliyi edəcək.

Qərar Beynəlxalq Gimnastika Federasiyasının (FIG) İcraiyyə Komitəsinin Sankt-Peterburqda keçirilmiş növbəti iclasında qəbul olunub. Tədbirdə qurumun üzvü, Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov da iştirak edib.

Bu idman növünün ölkəmizdə populyarlaşmasında mühüm rol oynayacaq çempionat gələn il mayın 14-16-da keçiriləcək. Çempionatdan əvvəl mayın 8-10-da paytaxtımızda Dünya Yaş Qrupu Yarışları da təşkil olunacaq.

Son illər ölkəmiz gimnastika üzrə irimiqyaslı yarışlar keçirərək, dünya kubokları və Avropa çempionatlarını uğurla təşkil edib. Sevindirici haldır ki, Azərbaycanda gənc gimnastika növü sayılan aerobika üzrə belə əhəmiyyətli yarışın təşkili də məhz Azərbaycan Gimnastika Federasiyasına həvalə olunub.

Xatırladaq ki, beynəlxalq yarışlarla zəngin təqvim planında 2019-cu il sentyabrın 16-22-də Bakıda, Milli Gimnastika Arenasında keçiriləcək bədii gimnastika üzrə dünya çempionatı da yer alır. Paytaxtımızda baş tutacaq daha bir dünya birinciliyi isə 2021-ci il noyabrın 11-14-də batut gimnastikası növündə olacaq.

* * *

Macarıstanın Harkani şəhərində XVI ənənəvi "Pecs" kuboku uğrunda gimnastika turniri keçirilib.

17 ölkədən 395 gimnastın iştirak etdiyi yarışda Azərbaycanı səkkiz yaşlı həmyerlimiz Mina Abbasova təmsil edib. Turnirdə inamla çıxış edən Mina Abbasova üçüncü yerə layiq görülüb.

Sayca 33-cü medalını (11 qızıl, 19 gümüş, 3 bürünc) qazanan Mina Abbasova müxtəlif yarışların ən yüksək mükafatlarına layiq görülüb. Həmyerlimiz iştirak etdiyi bütün beynəlxalq yarışlarda valideynlərinin işi ilə bağlı ezam olunduqları ölkəni -



Macarıstanı təmsil etsə də, ötən ilin avqustundan etibarən Budapeştdə keçirilən XVII ənənəvi "Gracia" kuboku turnirindən sonra klub rəhbərliyinin icazəsi ilə Azərbaycan bayrağı altında çıxış edir.

Balaca gimnastımızın ən böyük arzusu doğma Azərbaycanı dünya çempionatlarında və Olimpiya Oyunlarında təmsil etmək və üçrəngli bayrağımızı zirvələrə qaldırmaqdır.

## Boks üzrə beynəlxalq turnirin qalibləri müəyyənləşib

Abşeron Olimpiya İdman Kompleksində yeniyetmə oğlan boksçular arasında "Heydər Əliyev Kuboku - 2019" beynəlxalq turniri başa çatıb.

Ənənəvi yarışda Azərbaycan yığması ilə yanaşı, Qazaxıstan, Özbəkistan, Ukrayna, Rusiya, Türkiyə, Gürcüstan və Qırğızıstan millilәri güclərini yoxlayıblar.

Komandamız turnirdə 4 qızıl, 2 gümüş və 9 bürünc medal qazanıb. Millimizin heyətində Nicat Hüseynov (48 kq), Zaur Qəhrəmanov (50 kq), Turqay Mirzəyev (57 kq) və Cəfər Heydərli (80 kq) bütün rəqiblərinə qalib gələrək çempion tituluna yiyələniblər.

Yalnız finalda məğlub olan Səid Abdullayev (48 kq) və Əli Gözəlov (52 kq) ikinci yeri tutublar. Digər boksçularımızdan Nicat Ağakişiyev (46 kq), Samin Qasımov (48 kq), Fəqan Məmmədov (50 kq), Qasım Qasımov (52 kq), Elmar Abbasov (54 kq), Cavid Şahbazbəyli (57 kq), Nicat Qurbanov (60 kq), Fərid İmaməliyev (63 kq) və Səyadulla Nəsirov (66 kq) bürünc medalla kifayətlənməli olublar.

Bu nəticə ilə Azərbaycan komanda hesabında birinci olub. Yığmamız 43 xal toplamaqla, həmçinin medal sayında rəqiblərini qabaqlayıb. Yarışda ikinci yer Özbəkistan komandasına qismət olub. Asiyalılar "Heydər Əliyev Kuboku-2019"da 31 xal toplayıblar. Onlar turniri 5 qızıl və 2 bürünc medalla başa vurublar.

Üçüncü yeri isə ötən il olduğu kimi, bu dəfə də Ukrayna qazanıb. Bu komanda ölkəmizdə 17 xal yığıb (2 qızıl, 2 bürünc). Qaliblərə diplom və kubok verilib.

Qeyd edək ki, 63 kiloqram çəki dərəcəsində çempion olan qazaxıstanlı Toxtasin Babaxanov turnirin ən texnikalı boksçusu seçilib.

FIDE

## FİDE may ayı üçün yeni reytinq siyahısını açıqlayıb

Beynəlxalq Şahmat Federasiyası (FİDE) may ayı üçün yeni reytinq siyahısını açıqlayıb.

Azərbaycanlı qrossmeysterlər Şəhriyar Məmmədyarov və Teymur Rəcəbovun mövqeyi dəyişməyib. Ş.Məmmədyarov 2781 xalla 5-ci, T.Rəcəbov 2759 xalla 12-ci pillədə qərarlaşıblar. Digər şahmatçılarımız Arkadi Naydiç 2682 xalla 58-ci, Qədir Hüseynov 2654 xalla 97-cidir. Kişi şahmatçılar arasında reytinq siyahısına hazırkı dünya çempionu norveçli Maqnus Karlsen (2861) liderlik edir.

Sonrakı yerləri amerikalı Fabiano Karuana (2816 xal), çinli Dinq Liren (2805 xal) bölüşürlər.

Qadın şahmatçılarımızdan Günay Məmmədzadə (2436 xal, 40-cı yer) və Xanım Balacayeva (2373 xal, 92-ci yer) ilk yüzlükdə yer alıblar. Qadın zəka ustaları arasında isə ilk üç pillədə çinli idmançılar Hou Yifan (2662), Vencun Cu (2590) və ukraynalı Mariya Muziçuk (2563) qərarlaşıblar.

## Triatlonçumuz dünya çempionudur

Triatlonçumuz ABŞ-da keçiriləcək Dünya Çimərlik Oyunlarına vəsiqə qazanıb. Azərbaycan triatlonçusu Rostislav Pevtsov akvatlon üzrə dünya çempionu olub.

İdmançımız İspaniyanın Pontevedra şəhərində keçirilən dünya çempionatında bütün rəqiblərini qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. R.Pevtsov həm də payızda ABŞ-ın San-Dieqo şəhərində keçiriləcək Dünya Çimərlik Oyunlarına vəsiqə qazanıb.

R.Pevtsov yarışın 1 kilometrlik su mərhələsini 12 dəqiqə 54 saniyəyə başa vurub. O, yarışın 2,5 kilometr məsafəyə qaçış mərhələsində isə 14 dəqiqə 59 saniyəlik nəticə göstərib.

İdmançımız 57 triatlonçunun mübarizə apardığı yarışı 28 dəqiqə 57 saniyəlik nəticə ilə başa vurub.

Dünya çempionatında çıxış edən yığmamızın digər üzvü Kseniya Levkovskaya isə finişə 6-cı çatıb.

# Ölkəmiz beynəlxalq turnirə ev sahibliyi edib

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illiyi ilə əlaqədar yeniyetmələr arasında stolüstü tennis üzrə beynəlxalq turnir keçirilib.



Yarış 2004-2007-ci, 2008-ci il təvəllüdlü və daha kiçik yaşlı idmançılar arasında təşkil edilib.

Yarışın birinci günündə 2008-ci il və daha kiçik yaşlı idmançılar qüvvələrini sınayıblar. Qızların yarışında idmançılarımızdan Arzu Aslanova yüksək nəticə göstərərək birinci yeri tutub. İkinci pillədə digər stolüstü tennisçimiz Mərziyyə Nürmətova qərarlaşıb. Üçüncü yerə isə Türkiyə təmsilçisi Alsudə Tuba Şimşək və Azərbaycan idmançısı Aylin Əsgərova sahib olublar.

Oğlanların mübarizəsində Azərbaycanın stolüstü tennisçiləri Hüseyn Eylazov birinci, Adil Əhmədzadə ikinci yeri tutublar. Azərbaycanın digər təmsilçisi Rüstəm Hacılı və Türkiyə idmançısı Mustafa Nebhan üçüncü yerə layiq görülüblər.

2004-cü il və daha kiçik yaşlı qızlar arasında birinci yeri İran təmsilçisi Elina Rəhimi, ikinci yeri Rusiya idmançısı Mariya Siropova, üçüncü yeri isə Azərbaycanın stolüstü tennisçisi Mehriban Dadaşova qazanıblar. Oğlanlar arasında iranlı Aşrafi Parham, azərbaycanlı Emin Məmmədov birinci və ikinci pilləri tutublar. Üçüncü yerə isə İran təmsilçisi Samran Kərimi və azərbaycanlı idmançı Kənan Pənahov layiq görülüblər.

Sonda yarışda fərqlənənlər mükafatlandırılıblar.

Qalib və mükafatçılara medalları Azərbaycanın gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Azərbaycan Stolüstü Tennis Federasiyasının vitse-prezidenti Fazil Məmmədov, Türkiyə Stolüstü Tennis Federasiyasının prezidenti Fateh Karaca və İran Stolüstü Tennis Federasiyasının prezidenti Mehrdad Aliqardaşı təqdim ediblər.



# Paytaxatda yeni idman zalı istifadəyə verilib

Mayın 2-də Yasamal rayonunda yeni kikboksinq zalının açılış mərasimi keçirilib. Tədbirdə millət vəkili, Azərbaycan Kikboksinq Federasiyasının Prezidenti Adil Əliyev, Yasamal Rayon Gənclər və İdman idarəsinin rəisi İlham Səfərov və federasiyanın nümayəndələri iştirak ediblər. Mərasimdə çıxış edən Adil Əliyev "Fighter 2" zalının açılışının Yeni Yasamal ərazisində yaşayan yeniyetmə və gənclərin idmana cəlb olunmasında böyük rol oynayacağını qeyd edib. "Bu gün Yeni Yasamal ərazisində yeni kikboksinq zalının açılış mərasiminə toplaşmışıq. Biz çox sevinirik ki, kikboksinq ailəsi böyüyür, idmançılarımızın sayı artır. Belə bir zalın tikilərək yeniyetmə və gənclərin istifadəsinə verilməsi Azərbaycan gənclərinin sağlam ruhda böyüməsinə və ölkəmizdə idmanın kütləviləşməsinə xidmət edir. Qeyd edim ki, bu günə qədər 150-dən çox klubumuz qeydiyyatdan keçib. Çalışırıq ki, təkcə şəhər mərkəzlərində deyil, hər bir məhəllədə yeni idman zalı istifadəyə verərək gəncləri sağlam həyata dəvət edək. Əsas məqsədimiz odur ki, yeniyetmə və gənclərimiz internet klublara və çayxanalara deyil, idman zallarına gəlsinlər. Fərqi yoxdur, hansı idman növü olur olsun, əsas odur ki, uşaq öz asudə vaxtını idman zalında keçirsin, enerjisini idmana sərf etsin. Belə olan halda uşaq sağlam böyüyəcək, Vətəninə layiqli vətəndaş kimi yetişəcək. Buna görə də "Fighter 2" klubunun prezidentinə və direktoruna təşəkkürümü bildirirəm. İnanıram ki, belə zallardan gələcəyin dünya çempionları çıxacaq", - deyə Adil Əliyev bildirib.

Yasamal Rayon Gənclər və İdman İdarəsinin rəisi İlham Səfərov isə ölkəmizdə idmanın inkişafından danışaraq belə zalların idmanın kütləviliyi üçün vacib olduğunu diqqətə çatdırıb. O, digər idman növlərində olduğu kimi, Yasamal rayonunu təmsil edən kikboksinqçilərin də uğurlu nəticələr əldə etdiklərini dilə gətirib.

Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, 2 mərtəbəli zaldan ibarət olan "Fighter 2" klubunun ümumi sahəsi 200 kvadratmetrdir. Klubda soyunub-geyinmə otağı, trenajor zalı, rinq, idman döşəkləri mövcuddur.

* * *

Mayın 18-19-da Azərbaycan Kikboksinq Federasiyasının və Xəzər Rayon Gənclər İdman İdarəsinin dəstəyi ilə "Vətən" kikboksinq klubunun açıq birinciliyi keçiriləcək.

Şağan Olimpiya İdman Kompleksində keçiriləcək turnir 28 May - Respublika Gününə həsr olunacaq.

Turnirdə respublikanın şəhər və rayonlarından komandalar iştirak edəcəklər.



# Dünya Kuboku uğurla yekunlaşıb

Mayın 4-də Abşeron Olimpiya İdman Kompleksində ciyutaido milli idman növü üzrə IV Dünya Kuboku yarışı keçirilib. Yarışdan bir gün əvvəl Abşeron Olimpiya İdman Kompleksinin konfrans zalında turnirlə bağlı mətbuat konfransı təşkil olunub. Mətbuat Konfransında Azərbaycan Kyokşinkay Karate və Ciyutaido Federasiyasının sədri, ciyutaido idman növünün yaradıcısı, 9-cu dan qara kəmər sahibi Teyub Əzizov, həmçinin yarış üçün Yaponiyadan Bakıya təşrif buyurmuş məşqçilər və mütəxəssislər iştirak ediblər. Mətbuat konfransını giriş sözü ilə açan Teyub Əzizov IV Dünya Kuboku yarışının bir dəfə Tacikistanda, iki dəfə isə Türkiyədə təşkil olunduğunu bildirib. Azərbaycanda isə bu yarışın ilk dəfə keçirildiyini deyən Teyub Əzizov IV Dünya Kubokunun ölkəmizdə yüksək səviyyədə keçiriləcəyinə inandığını qeyd edib. Yaponiyadan gəlmiş kyokuşinkay mütəxəssisləri Rennon Lee, Oqava Takaşi, Fumihiro Miyaraki ciyutaido idman növünün Azərbaycanda da sevildiyini diqqətə çatdırıblar.

Çıxışlardan sonra jurnalistlərin sualları cavablandırılıb.

Mayın 4-də isə turnirə start verilib. 11 ölkədən ümumilikdə 300-ə yaxın idmançının iştirak etdiyi ciyutaido milli idman növü üzrə IV Dünya Kubokunda yarışlar üç versiyada, S, T və K versiyaları üzrə keçirilib. Uşaqlar, yeniyetmələr, gənclər və böyüklər (oğlanlar və qızlar) arasında keçirilən yarışda ölkəmiz 150-ə yaxın idmançı ilə təmsil olunub.

Turnirin açılış mərasimində Gənclər və İdman Nazirliyinin nümayəndəsi Fəxrəddin İsmayılov, Azərbaycan Kyokşinkay Karate və Ciyutaido Federasiyasının sədri Teyub Əzizov, federasiyanın vitse-prezidenti Zeynal Zeynalov, Azərbaycan Ciyutaido Təşkilatının sədri Elşad Gülalıyev iştirak edib.

Açılış mərasimində çıxış edən Zeynal Zeynalov turnir haqqında məlumat verib. O, ciyutaidonun 30-dan çox dövlətdə inkişaf etdiyini, bu idman növünün 10 minlərlə üzvü olduğunu qeyd edib.

Gənclər və İdman Nazirliyinin nümayəndəsi Fəxrəddin İsmayılov turnir iştirakçılarını salamlayaraq idmançılara uğurlar arzulayıb. O, ölkəmizdə Olimpiya idman növləri ilə yanaşı, qeyri-Olimpiya idman növlərinin inkişaf etdiyini qeyd edib.

Azərbaycan Kyokşinkay Karate və Ciyutaido Federasiyasının sədri Teyub Əzizov ölkəmizdə idmana göstərilən diqqət və qayğıdan danışaraq idmançılarımızın beynəlxalq arenalarda qazandığı uğurlardan söz açıb. O, sayca IV Dünya Kubokunun ölkəmizdə keçirilməsinin təsadüfi olmadığını, 2021-ci ildə ilk dünya çempionatının keçirilməsinə bir zəmin olduğunu bildirib.

Çıxışlardan sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Açılış mərasimi bədii hissə ilə davam edib.

Gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən yarışda Azərbaycan idmançıları S, T və K versiyalarında ümumilikdə 43 qızıl medal qazanaraq komanda hesabında birinci yeri tutublar.

Qaliblər, diplom, medal və kuboklarla təltif olunublar.

## *Qolf üzrə "MercedesTrophy" turniri keçirilib*



Mayın 5-də "Dreamland Golf Club"un ərazisində Azərbaycanda "Mercedes-Benz"in rəsmi distribüteri olan "Autocapital-Azerbaijan" şirkətinin dəstəyi ilə qolf üzrə "MercedesTrophy" turniri keçirilib.

"MercedesTrophy" qolfçu-amatorlar arasında regional finala vəsiqə qazanmaq uğrunda mübarizədə 76 idmançı iştirak edib.

Turnirin A qrupunda Viliam Blançard 39 xalla birinci yeri tutub. David Seo isə 36 xalla ikinci olub. Kennet Lemley isə 33 xalla üçüncü yeri tutub.

B qrupunda isə azərbaycanlı idmançı Elman Rzayev birinci yeri tutub. Andrey Yankovski ikinci, Azubair Yvayed üçüncü olub.

C qrupunda isə İan Allan bütün rəqiblərini üstələyib. Dag Andre Moen və Raymond İrvinq ikinci, üçüncü yerləri tutublar. Hər qrup üzrə ilk iki yeri tutan iştirakçı Bolqarıstanda təşkil olunacaq "MercedesTrophy" turnirinin növbəti mərhələsinə vəsiqə qazanıb.

Üçüncü yerin sahibləri isə kuboklarla təltif olunublar.

# Açıq Bakı birinciliyi başa çatıb



Mayın 5-də Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Azərbaycan Basketbol Federasiyanın birgə təşkilatçılığı ilə keçirilən basketbol üzrə açıq Bakı birinciliyinin bağlanış mərasimi keçirilib. Tədbirdə çıxış edən Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəis müavini Rəşad Əliyev yarışın keçirilməsində əsas məqsədin uşaq və gənclərə idmanı, o cümlədən basketbolu sevdirmək olduğunu bildirib.

Çıxışlardan sonra final oyunları keçirilib. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda 14 yaşlı oğlanlar arasında 2 nömrəli RİOEUGİM-in komandası birinci olub. "Sıçrayış" komandası ikinci, "Gold fives" isə üçüncü yerə sahib çıxıb. 12 yaşlılar arasında 2 nömrəli RİOEUGİM kollektivi yenə də çempionluğa sevinib. 9 nömrəli UGİM basketbolçuları gümüş medallarla təltif olunublar. "Sıçrayış" kollektivi isə üçüncülüklə kifayətlənib. 16 yaşlı qızların mübarizəsində isə "Neftçi" komandası çempion adını qazanıb. "Golden fives" və "Gəncə" basketbolçuları isə müvafiq olaraq, ikinci, üçüncü yerləri tutublar.

Qaliblər kubok və medallarla mükafatlandırılıblar.

# Mini futbol çempionatına yekun vurulub

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman-sağlamlıq klubunun stadionunda mini futbol çempionatı keçirilib.

FHN İşçilərinin Həmkarlar İttifaqının və İdman-sağlamlıq klubunun birgə təşkilatçılığı ilə keçirilən çempionatda 15 komandadan 150-yə yaxın idmançı iştirak edib.

Baş hakim Elmir Quluzadənin rəhbərliyi ilə keçirilən çempionatda komandalar dörd qrupa bölünüb. Bu qruplardan birinci və ikinci yerləri tutan komandalar növbəti tura vəsiqə qazanıb. Üçüncü yer uğrunda keçirilən görüşdə FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin (DYMX) komandası Kiçik Həcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Xidmətinə qalib gələrək çempionatın bürünc medalına sahib olub.

Finalda isə FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin (XRXX) komandası Maddi Texniki Təchizat (MTT) komandasına qalib gələrək çempionatın qalibi adını qazanıb. Çempionatda ən yaxşı qapıçı Rəşad Səttarzadə (DYMX), ən çox qol vuran Turxan Quliyev (MTT), ən yaxşı oyunçu isə Asif Zeynalov (XRXX) olublar.

Sonra qaliblərə kubok, medal və qiymətli hədiyyələr təqdim olunub.



Bizim müsahibə

# Zakir Quliyev:
# "Həyatımı idmansız təsəvvür edə bilmirəm"

***Bu gün ölkəmizdə kütləviliyi ilə seçilən idman növlərindən biri də boksdur. Bu idman növü ilə məşğul olan yeniyetmələr və gənclər müxtəlif yarışlarda əldə etdikləri uğurlu nəticələrlə xalqımızı sevindirirlər. Bu isə xeyli dərəcədə boksun Azərbaycandakı tarixi ənənəsi ilə bağlıdır. Ölkəmizdə bu idman növü üzrə kifayət qədər tanınmış idmançılar, məşqçilər olub və onlardan biri də SSRİ idman ustası, beynəlxalq dərəcəli hakim, Azərbaycanın Əməkdar məşqçisi, Azərbaycan Boks Federasiyasının İcraiyyə Komitəsinin üzvü Zakir Quliyevdir. Buyaxınlarda Zakir müəllimlə redaksiyamızın "Qonaq otağı"nda görüşdük və o, suallarımızı səmimi cavablandırdı.***

## "Küsülü dostlarımı bir-biri ilə barışdırardım"

***- Zakir müəllim, əvvəlcə, özünüz haqda oxucularımıza ətraflı məlumat verərdiniz.***

- 1952-ci il martın 12-də Azərbaycanın qədim yaşayış məskənlərindən olan Dərbənd şəhərində anadan olmuşam və 9 yaşına kimi orada yaşamışam. 1961-ci ildə ailəmizlə birlikdə Bakıya köçmüşük. Uşaqlıq və gənclik illərim "dağlı məhəlləsi" deyilən ərazidə keçib.

Mən də adi Bakı uşaqları kimi məhəllədə dəbdə olan oyunlar oynayaraq böyümüşəm. Demək olar ki, hər gün məhəllə uşaqları ilə "Şumaqədər", "Naqquli", "Ənzəli", "Aşıq-aşıq"oynayardım. Tez-tez "Çərpələng" uçurdardım. "Novruz" bayramında doyunca yumurta döyüşdürər, küsülü dostlarımı bir-biri ilə barışdırardım. İndi şirin bir xatirə kimi uşaqlıq illərimi yada salır, hərdən də yuxuda o gözəl günlərə səyahət edirəm.

1974-1978-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda təhsil alıb, məşqçi-müəllim ixtisasına yiyələnmişəm. "Dinamo" idman cəmiyyətində uzun müddət məşqçi-müəllim kimi çalışmışam. Sonralar Bakı şəhər DİN-nin Baş Polis İdarəsində kadrlar üzrə müfəttiş işləmişəm. Ömrümün böyük bir hissəsi boksda keçib. Ümumiyyətlə, bu idman növünün ölkəmizdə inkişafında mənim də az da olsa əməyim olub. 1996-cı ildən 2009-cu ilə kimi Azərbaycan Boks Federasiyasının vitse-prezidenti kimi fəaliyyət göstərmişəm. Həmişə boksçularımızın problemləri ilə yaxından maraqlanmış və onlara öz köməkliyimi göstərmişəm.





## "Boksçu rinqdə düşünməyi, düzgün taktika seçməyi bacarmalıdır"

***- Maraqlıdır, boksa gəlişiniz necə olub?***

- Boksa gəlişim təsadüfi olub. Kiçik yaşlarımda məhəllə uşaqları ilə "kos" (top) qovar, elə küçədə asfaltın üstündə güləşərdik. Qolum, dirsəklərim və dizlərim həmişə belə "əməllərim"dən sonra qan içində olardı. Öz-özümə deyərdim ki, görəsən, mənim əl-ayağımın salamat günü olacaqmı? Tez-tez məhəllə uşaqları ilə nəyisə "bölə bilməyəndə" savaşardıq. Bəlkə də, elə bu amalla mən boks bölməsinə gəlib məşqlərə başladım. Boksla o vaxtki Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Unversiteti) kiçik boks zalında SSRİ idman ustası Nadir Məmmədovun rəhbərliyi altında məşğul olmağa başlamışam. Məşq etdiyim zalın şəraiti o qədər də yaxşı deyildi. Soyunub-geyinmə otağımız, duşxanamız yox idi. Burada 1 il məşq etdikdən sonra eşitdim ki, şəhərin bulvara yaxın hissəsində "Dinamo" deyilən bir idman cəmiyyəti var. Orada hər bir şərait mövcud idi. Tezliklə uşaqlara qoşulub həmin "Dinamo" idman cəmiyyətinin boks zalına gəldim. Zalda bizi yaşlı, bir ayağı axsayan rus məşqçi qarşıladı. Sonradan bildim ki, bu məşqçi SSRİ çempionatının bürünc mükafatçısı (1948), SSRİ idman ustası, Azərbaycanın Əməkdar məşqçisi, ümumittifaq dərəcəli hakim, dəfələrlə Azərbaycan çempionu olmuş, müharibə veteranı Aleksandr Pavloviç Kryuçkovdur (1913-1981). Çox maraqlıdır ki, A.Kryuçkovun müharibədə aldığı xəsarət (ayağı şikəst idi) onun boksa olan sevgisini azalda bilməmişdi. 1966-cı ildən A.Kryuçkovun rəhbərliyi altında boks elminin sirlərini mənimsəməyə başladım. Mən təsadüfən "boks elmi" ifadəsini işlətmədim. Aleksandr Pavloviç bizə deyirdi ki, boks iki nəfərin bir-birini yumruqlamağı deyil. O, bizə öyrədirdi ki, yüksək texnikaya malik olub, fiziki güc imkanları ilə tək qələbə qazanmaq olmaz. Boksçu rinqdə düşünməyi, öz potensialına uyğun düzgün taktika seçib qələbə qazanmağı bacarmalıdır. Bunun üçün də çoxlu məşq edib məşqçinin verdiyi tapşırıqları səylə yerinə yetirmək lazımdır. O, söyləyirdi ki, "rəqibə beş zərbə vurub, dörd zərbə alınca, iki zərbə vurub zərbə buraxmamaq lazımdır. Unutmayın ki, insanın başı dəmirdən deyil. Onu qorumaq lazımdır".

***- Boksda ilk uğurlarınızı necə xatırlayırsınız?***

- Boksda ilk uğurum 1967-ci ilə təsadüf edir. Həmin il mən yaşıdlarım arasında Bakı birinciliyinin qalibi olmuşam. Maraqlı bir hadisə danışım: Bəzən məşqçilər, yetirmələr daha yaxşı nəticə göstərsinlər deyə, öz idmançılarının yaşını 1-2 il azaldırlar ki, özlərindən kiçik yaşlılar üzərində qələbə qazanmq şansları çox olsun. Mənim məşqçim isə yaşımı 1 il böyüdərək, yarışlarda özümdən böyüklərlə iştirak etməyə imkan yaratdı. O, mənə deyirdi ki, sən yaşından çox inkişaf etmisən. Yaşıdlarım mənimlə döyüşməkdən çəkinirdilər. Çünki sol əllə (solaxay idim) qüvvətli zərbə vururdum. Əslində 1953-cü il təvəllüdlüyəm. Lakin idmana görə təvəllüdümü dəyişib 1952-ci il oldum. Bu da mənim kiçik yaş sirrimdir (gülür).

Dəfələrlə Bakı və Azərbaycan çempionu tituluna yiyələnmişəm. 1971-73-cü illərdə "Dinamo" cəmiyyətinin Ümumittifaq Mərkəzi Şurası çempionatının gümüş mükafatçısı, SSRİ Kuboku yarışlarının (gənclər) qalibi olmuşam. Məni "Dinamo" cəmiyyətinin Ümumittifaq Mərkəzi Şurasının yığma komandasının tərkibinə daxil etmişdilər. O illərdə Özbəkistan, Ukrayna, Estoniya, Belarus, Qazaxıstan və Rusiyanın müxtəlif şəhərlərində keçirilən ümumittifaq turnirlərin qalibi və mükafatçısı olmuşdum. Həmçinin SSRİ Xalqlarının Spartakiadasında Azərbaycanın yığma komandasının tərkibində çıxış etmişdim. Biz o vaxtlar mötəbər yarışlarda çempion olanda ən böyük mükafatımız ya 20-30 manatlıq qol və ya divar saatı, ya da idman kostyumu, krassovkası olardı.

## "Sovet dövründə respublikamızda boksun coğrafiyası çox məhdud idi"

***- Həmin dövrdə yığmaya düşmək çox çətin idi?***

- İttifaq miqyasında biz nə qədər yaxşı, nəticəli idmançı olsaq da, o vaxtın funksionerləri bizə 2-ci növ idmançı kimi baxırdılar. "1-ci növ idmançılar" Moskvadan, Leninqraddan (Sankt-Peterburq) çıxardı, daha doğrusu, çıxardırdılar. Yəni demək istəyirəm ki, bizim üzümüzə xaricdə çıxış etmək qapısı bağlı idi. Respublikamız müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, boksda da uğurlarımız artdı. Artıq biz müstəqil dövlətimizin bayrağı altında dünyanın istənilən ölkəsində keçirilən yarışlarda çıxış etmək imkanı qazandıq. Uğurlarımız da göz qabağındadır. Artıq bizim bütün yaş qruplarında onlarla dünya, Avropa çempionlarımız var. İdmançılarımız Olimpiya Oyunlarında da uğurla çıxış edib gümüş, bürünc medallar qazanıblar. Arzu edirəm, dəri əlcək ustalarımız Olimpiya Oyunlarından vətənimizə qızıl medal gətirsinlər. Bir məsələni də qeyd etmək istəyirəm: Sovet dövründə respublikamızda boksun coğrafiyası çox məhdud idi. Boks əsasən, Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Lənkəran, Siyəzən, sonralar isə Cəlilabad, Biləsuvar və Şirvanda inkişaf etdirilməyə başlanıb. Bakıda boks bölməsi olan 5-6 cəmiyyətdə işləyən məşqçilərin sayı 25-30 olurdusa, onların 40-45 faizi başqa millətlərdən idi. Onlar da, xüsusilə erməni millətindən olan məşqçilər boksumuzun irəli getməsinə daim mane olurdular. Erməni məşqçilərinin təlim qruplarının yarısından çoxu erməni, rus və s. millətlərin nümayəndəsi olurdu. Onların imkanı olsaydı qruplarına azərbaycanlı uşaqları götürməzdilər. Lakin qrupun sayını düzəltmək məcburiyyətində qalıb, azərbaycanlı uşaqları qəbul edirdilər. Ancaq onlara diqqət az yetirirdilər.

***- Zakir müəllim, istərdik ki, bir qədər də Əhməd Çoudrinin şərəfinə təşkil olunmuş ilk beynəlxalq turnirin tarixi haqqında məlumat verəsiniz.***

- 1996-cı ildə Ümumdünya Boks Federasiyasının prezidenti (AİBA) Əhməd Çoudrinin şərəfinə təşkil olunmuş ilk beynəlxalq turnirin Bakıda keçirilməsinə nail olduq. Sonradan bu turnir ənənəvi hal aldı. Bu turnirə hər il dünyanın 15-20 ölkəsindən idmançılar gəlirdi. Bizim boksçularımız da onlarla bərabər yarış təcrübəsi qazanırdılar. Deyərdim ki, bu turnirin vasitəsi ilə Azərbaycanı dünyada yaxşı boksçuları olan ölkə kimi tanıdılar. Hər il Bakıda keçirilən beynəlxalq turnir zamanı ölkə başçısı Heydər Əliyev AİBA-nın prezidenti, professor Əhməd Çoudrini, Avropa Boks Federasiyasının prezidenti Akademik Emil Jeçevi, tanınmış hakimləri və qonaqları qəbul edir, öz tövsiyələrini verirdi. Sonrakı illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də bu ənənələri davam etdirdi.

1999-cu ildə Bakıda yeniyetmələrin Avropa, 2001-ci ildə isə dünya çempionatı keçirildi.

***- Ən yaddaqalan döyüşünüz hansı olub?***

- Yadda qalan döyüşlərim çox olub. 1973-cü ildə Sumqayıtda Azərbaycan Nazirlər Sovetinin mükafatı uğrunda keçirilən ümumittifaq turnirində Avropa və SSRİ çempionu (1972) beynəlxalq dərəcəli idman ustası Anatoli Levişevlə görüşdüm. Onunla döyüşüm çox gərgin keçdi. Üç raund davam edən görüşdə tamaşaçılar əvvəl rəqibimdən zəif olmağımı düşünsələr də, sonra mənim rəqibimi çətin vəziyyətə salmağımı, sol əllə gövdəyə və başa güclü zərbələr vurmağımı görüb, məni qələbəyə ruhlandırdılar. Görüşün sonunda yan hakimlər ədalətsizlik edib 3:2 hesabı ilə qələbəni rəqibimə verdilər. Rinq hakimi qalib kimi onun əlini qaldırsa da, görüşə baxan tamaşaçılar və mütəxəssislər mənim rəqibimdən üstün olduğumu açıq-aydın gördülər. Hakim səhv etsə də, qərarı qüvvədə qaldı. Maraqlı bir hadisə də danışım.



Rusiyada ümumittifaq yarışında çıxış edirdim. Komandamızın rəhbəri məndən xahiş etdi ki, qarşılıqlı razılığa əsasən sən bu görüşdə məğlub ol, onlar da bizə başqa çəkidə "süni qələbə" verəcəklər. Bu yarışın və qələbənin mənim üçün o qədər də əhəmiyyəti olmadığı üçün razılaşdım. Ancaq dedim ki, ikinci raundda mən qəsdən zədə almağımı göstərəcəyəm, həkim çağırarsız məni rinqdən çıxardar və mən məğlub hesab ediləərəm. Lakin hələ birinci raundda, döyüş başlayan kimi təsadüfən könülsüz vurduğum zərbə rəqibin çənəsinə dəydi və o yerə sərildi. Rinq hakimi bu görüşdə rəqibimin nokauta düşdüyünü bildirdi. Mən düzü, bunu istəmirdim. Məğlubiyyətə razılaşmışdım. Amma, görünür, Tanrı ədalətsizliyə razı ola bilmədi.

***- Tanınmış yetirmələrinizdən kimlərin adlarını çəkə bilərsiniz?***

- Dediyim kimi, illərlə yorulmadan Azərbaycan boksuna xidmət etmişəm. Afina-2004 Olimpiya Oyunlarının bürünc mükafatçısı Fuad Aslanov mənim şəxsi yetirməm olub. Ondan başqa, Azər Mirzəyev və digərləri mənim tələbələrim olublar. Mən onların hər biri ilə fəxr edirəm.

## "Abbas Ağalarov Azərbaycan boksunun pioneri olub"

***- Öz dövrünüzün boksçularını necə xatırlayırsınız?***

- Vaqif Rəfiyev, Füzuli Ələkbərov, Ağaismayıl Rəhimov, Balasan Eynullayev, Zərbəli Yusubov, Nağı Hacıyev və başqaları kimi məşhur boksçularla mən eyni vaxtda bir zalda məşq etmişəm. Onların hər biri Azərbaycan boksunun tarixində iz qoyan idmançılar olublar. Vaqif Rəfiyev, Ağaismayıl Rəhimov, Balasan Eynullayev, Zərbəli Yusubov SSRİ çempionatlarının gümüş, bürünc mükafatçıları olublar. Onların hər biri SSRİ yığma komandasının üzvü olaraq beynəlxalq səviyyədə keçirilən yarışlarda medallar qazanıblar.

***- Bəs, Abbas Ağalarov haqqında nə deyə bilərsiniz?***

- Abbas Ağalarov təkcə Azərbaycanda yox, SSRİ məkanında boksun sayılıb-seçilən mütəxəssislərindən olub. Abbas Ağalarov 1928-ci ildə 17 yaşında I Ümumdünya Fəhlə Spartakiadasında medal qazanmışdı.

O, 1937-ci ildə keçirilən SSRİ çempionatının gümüş medalçısı idi. SSRİ-nin Əməkdar idman ustası, SSRİ-nin Əməkdar məşqçisi, Beynəlxalq dərəcəli hakim, Azərbaycanın Əməkdar Bədən Tərbiyəsi və İdman xadimi fəxri adları ilə təltif olunmuşdu. Abbas Ağalarov Azərbaycan boksunun pioneri olub. Uzun illər Azərbaycan yığma komandasının baş məşqçisi, Bədən Tərbiyəsi və İdman İnstitutunda "Boks və ağır atletika və onun metodikası" kafedrasının müdiri vəzifəsində çalışıb. Mən onu şəxsən görmüşəm. 1972-ci il Bakıda keçirilən Abbas Ağalarovun xatirəsinə həsr olunmuş ümumittifaq turnirdə iştirak etmişəm.1972-ci ildən bu günə kimi onun xatirəsinə (əvvəllər sovet dövründə Ümumittifaq turnir adlanıb- A.Ə) beynəlxalq boks turniri keçirilir. O, çox böyük şəxsiyyət idi.

***- Azərbaycan boksunun ən şanlı səhifələri hansı illərə təsadüf edir.***

- Məncə, 1970-80-ci illər. O dövrdə boksa maraq daha böyük idi. Azərbaycan müstəqillik əldə etdikdən sonra 1992-ci ildə Avropa (EABA) və Dünya Boks Assosiasiyasının üzvü olduq. Həmin ildən bu günə kimi boksçularımız dünya, Avropa çempionatlarında bütün yaş qruplarında uğurla çıxış edirlər. Ancaq ilk dəfə gənclərin Avropa çempionatında qızıl medal qazanan idmançımız mərhum Ədalət Məmmədov olub. 1993-cü ildə Rövşən Hüseynov bir ildə həm gənclər, həm də böyüklər arasında Avropa çempionu adını qazandı. Kişilər arasında Azərbaycanın ilk dünya çempionu Ağası Məmmədov, Olimpiya Oyunlarında isə ilk medal qazanan (Sidney-2000, bürünc medal) idmançımız Vüqar Ələkbərov olub. Azərbaycandan SSRİ-nin beynəlxalq dərəcəli idman ustası adını birinci olaraq, Oqtay İbrahimov alıb. Mərhum Ağaismayıl Rəhimov Leninqradda yaşayıb və məşq edən dövrdə bu ada layiq görülüb. Məmmədrəsul Məcidov Azərbaycanda boks üzrə 3 qat dünya çempionu titulunu daşıyır. O, həm də London-2012 Olimpiya Oyunlarının bürünc mükafatçısıdır. Azərbaycan idmançıları Olimpiya Oyunlarında boks idman növündə 8 bürünc, 1 gümüş medal qazanıblar.

***- Sizə görə boksu digər idman növlərindən fərqləndirən nədir?***

- Boks insana çox nəcib xüsusiyyətlər aşılayır. Yaxşı boksçu olmaq üçün bütün idman növləri ilə məşğul olmalısan. Hətta şahmatla da. Güc, dözümlülük, çəldlik, yüksək düşünmə qabiliyyəti, ani olaraq qərar çıxarmaq bacarığı, yüksək texnikaya malik olmaq, şahmatçı kimi aldadıcı taktiki gedişlər etmək bacarığına malik idmançı yüksək nəticələr göstərə bilər. Peşəkar boksçu rinqdə həmişə çalışır ki, ilk növbədə rəqibinin müdafiəsini yarsın və ona sarsıdıcı zərbələr endirsin.

***- Sizcə, əsl məşqçi-müəllim necə olmalıdır?***

- Məşqçi-müəllim intizamlı, öz peşəsini sevən, savadlı, təmkinli, yüksək insani keyfiyyətlərə malik mədəni şəxsiyyət olmalıdır. Bir sözlə, öz əməli və davranışı ilə yetirmələrinə nümunə olmalıdır.

***- Asudə vaxtınızı necə keçirirsiniz?***

- Hər gün idmanla məşğul oluram. Gündəlik həyatımı idmansız təsəvvür edə bilmirəm. İdmançı dostlarımla tez-tez görüşürəm. Sosial şəbəkələrdə olan maraqlı müsahibələri gözdən keçirirəm. Boş vaxtım olanda bağda ağaclara qulluq edirəm. Bu günlərimə görə Tanrıya şükür edirəm.

***- Gənc boksçulara məsləhətiniz nədir?***

- Gənc boksçulara məsləhətim odur ki, dövlətimizə, millətimizə layiqli vətəndaş olsunlar. Məşqləri səbəbsiz yerə buraxmasınlar. Məşqçilərinin tövsiyələrini müzakirəsiz icra etsinlər. Səbrli, dözümlü, mətanətli olsunlar. Ancaq belə olan halda idmanda böyük uğurlar qazanmaq mümkündür.

*Azər Əlizadə,*
*Kənan Novruzov*

# Formula 1



## Bakıda keçirilən “sürət formulası” dünya mətbuatının diqqətindən yayınmır

“Formula1.com saytında Bakıda keçirilən SOCAR Azərbaycan Qran-Prisi ilə bağlı maraqlı statistik məlumatlar yerləşdirilib. Həmin məlumatları “Olimpiya dünyası” qəzeti oxucularına təqdim edir.

- “Mercedes” komandasının finlandiyalı pilotu Valtteri Bottas builki mövsümdə ikinci qələbəsini Bakı şəhər halqasında qazanıb.

Ümumiyyətlə, “Mercedes” komandasının sürücüləri mövsümün başlanğıcından ardıcıl dörd dəfə dubl edərək “Williams” komandasının bu göstərici üzrə 1992-ci ildəki üç yarışlıq rekordunu yeniləyiblər.

- “Alfa Romeo” komandasının pilotu Kimi Raykkonen indiyədək Bakıda baş tutmuş bütün Formula 1 yarışlarında ən güclü üç komandanın təmsilçilərindən başqa xal qazanan yeganə pilotdur.

- “Haas” komandasının pilotu Roman Qrojan indiyədək Bakıda keçirilmiş bütün Formula 1 yarışlarını uğurla başa vursa da, xal toplaya bilməyib. “Toro Rosso” komandasının pilotu Daniil Kvyat bugünədək Bakıda baş tutmuş dörd Qran-Prinin heç birini sonadək tamamlaya bilməyib.

- Formula 1 üzrə keçirilmiş son 16 yarışın hamısında ilk pilləyə “Mercedes” komandasının pilotları çıxıblar. Bu, bir komandanın hər iki pilotunun birlikdə fasiləsiz yiyələndiyi ən uzunmüddətli qələbə seriyasıdır.

- “Ferrari” komandasının pilotu Sebastian Fettel indiyədək Bakıda baş tutmuş bütün Formula 1 yarışlarını ilk 4-lükdə başa vurub. O, bu yarışların heç birində ilk ikilikdə yer ala bilməyib.

- “Racing Point”in sürücüsü Serxio Perez Bakıda keçirilmiş dörd Qran-Pridən üçündə ilk altılığa düşüb. “McLaren”in pilotu Karlos Saynz son üç Azərbaycan Qran-Prisində yarışı ilk səkkizlikdə başa vurub. Ötənilki Azərbaycan Qran-Prisindən sonra keçirilmiş yarışlarda “McLaren” komandasının hər iki pilotu ilk dəfə bu yarışda sonadək mübarizə apararaq xal qazana biliblər.

- Builki Azərbaycan Qran-Prisi “Racing Point”in pilotu Lens Strollun cari mövsümdə sıralama turunun birinci mərhələsindən keçə bilmədən yarışı ilk onluqda bitirərək xal qazandığı ikinci yarışdır. “Williams” komandasının pilotlarından hər ikisi cari mövsümdəki yarışlarda axıradək mübarizə aparmaqla rekord göstəriciyə imza atıblar. Komandanın pilotları bu yarışlarda ardıcıl olaraq sonuncu ikinci pillədə qərarlaşıblar. Bu da rekord göstəricidir.

## Azarkeşlərin seçdiyi “günün pilotu” və doğrulmayan etimad

Çempionatın rəsmi saytında Formula 1-in idman direktoru Ross Braunun Bakı yürüşünün yekunları barədə fikirləri yer alıb. F1News.ru saytına istinadla xəbər verir ki, Ross Braun deyib: “Bundan əvvəl dörd yürüşdə ardıcıl dörd qələbə heç bir komandaya qismət olmamışdı. Mən “Mercedes”i təbrik edirəm. Bu, bir daha göstərdi ki, onlar arxayınlaşmır və qələbədən sonra eyforiyaya qapılmırlar. Artıq iki qələbə qazanmış və çempionatda liderlik edən Valtteri Bottas öz işinin öhdəsindən məharətlə gəldi”. Onun sürəti artırmaq və extraordinar Luis Hamiltonla mübarizə aparmaq üçün imkanları var idi. Mən pilotların Hamilton kimi böyük çempionla bir komandada çıxış etməsinin nə qədər çətin olduğunu yaxşı bilirəm, çünki Luis indiyədək gördüyümüz ən yaxşı yürüşçüdür. Bunun mənfi təsiri ola bilər və digər pilotu öz imkanlarından aşağı səviyyədə çıxış etməyə vadar edər. Bu cür mürəkkəb vəziyyətdən çıxmaq çətindir, bunun üçün öz üzərində, həm də psixoloji cəhətdən yaxşı işləməlisən və Valtteri bunun öhdəsindən gələ bildi. Bu uğurların Luisin həmişə mükəmməl olduğu təsnifatlarda qazanılması ikiqat əlamətdardır.

Azarkeşlər ikinci dəfə ardıcıl Şarl Lekleri “günün pilotu” elan etdilər. Lakin Bəhreyndə olduğu kimi, gənc pilot maddi mükafat qazanmağı üstün tutardı. Səkkizinci dairədə qəza törətməsi Şarla baha başa gəldi, azarkeşlərin münasibəti isə onun üçün ən azı podiuma qalxmalı olduğu uik-endin sonunda zəif təsəlli oldu.

### “Təəssüf ki, hər şey onun üçün çətin oldu”

Braun Şarl Leklerin çıxışı barəsində fikirlərini diqqətə çatdırıb. “Təsnifatın ikinci hissəsində trasa “Medium” şinlərlə çıxmaq düzgün qərar idi, cümə günü aydın oldu ki, uzun məsafələrdə yumşaq şinlərlə “Mercedes”in maşınları daha sürətli olur. Əgər təsnifatın finalında Şarl onları qabaqlaya bilsəydi, onda pilot uzun məsafəni “Medium” şinlərlə qət edə bilər və qələbə qazanmaq imkanı olardı. Təəssüf ki, hər şey onun üçün çətin oldu, bu il üçüncü dəfə Şarl finişə beşinci çatdı. Əlavə dairə üçün daha bir xal almağın onun sevincinə səbəb olacağına əmin deyiləm, lakin o, bu yürüşdə ən yüksək yerlər uğrunda mübarizə aparmağa qadir olduğunu bir daha göstərdi.

“Racing Point” komandasının uğur qazanmasında təəccüblü heç nə yoxdur. Serxio Peres Bakıda həmişə yaxşı çıxış edir, o, burada iki dəfə podiuma qalxıb. Hərçənd bu dəfə finişə altıncı çatsa da, o, yürüşü əla keçirdi və “qalanların arasında” ən yaxşısı oldu.

Formula 1-in idman direktoru əlavə edib: “Onun tərəfdaşı Lens Stroll Bakıda keçirilən hər üç yürüşdə xallar qazanıb, 2017-ci ildə isə burada podiuma qalxıb. Bu komanda böyük hörmətə layiqdir, onun üzvləri 2019-cu ildə bir daha göstərdilər ki, sizin güc sərf etməniz deyil, onu nəyə sərf etdiyiniz mühümdür. İndi komandanın maliyyə əsasları daha möhkəmdir, lakin infrastruktur əvvəlki kimi



qalıb. Bunlar həmin insanlardır ki, ötən illərdə bizi təəccübləndirə biliblər. Onlar indi də öz işinin öhdəsindən yaxşı gəlir, tez-tez özlərindən daha böyük ştat vahidləri olan komandaları - “Renault” və “McLaren”i qabaqlayırlar.

### “Komandanın hər iki pilotu maşında özlərini inamlı hiss etmir”

“Renault” üçün mövsüm mürəkkəb alınır. Ötən il onlar mövsümü dördüncü yerdə başa vurdular və liderlərin üçlüyü ilə məsafəni azaldaraq daha yaxşı nəticələr əldə edəcəklərinə ümid edirdilər. Lakin dörd yürüşdən sonra onların ciddi səhvləri var idi və cəmi iki yeddinci nəticə əldə ediblər. Bu komanda təkcə “Ferrari” motoru ilə yürüşə çıxan “Alfa Romeo”dan deyil, həm də “Mercedes” motorlu “Racing Point” və “Renault”un özünün güc qurğusu ilə trassa çıxan “McLaren”dən də geridə qalırlar. Komandanın hər iki pilotu maşında özlərini inamlı hiss etmir, bu, xüsusilə Daniel Rikkardoya aiddir. Mən bu komandada bir çoxlarını tanıyıram, onlar gərgin çalışır və geriləməni aradan qaldırmaq istəyirlər. Bunun baş verməsi isə orta qrupdakı komandaların mübarizəsinin daha gərgin və maraqlı olacağı ilə nəticələnəcək”.

## Bakı Şəhər Halqası: “Bu il ötənilki qədər bilet satılıb”



***Bakıda keçirilən Formula 1 SOCAR Azərbaycan Qran-Prisi çərçivəsində yarış sessiyalarını yerində canlı izləməyə, həmçinin həftəsonunda “Baku Crystal Hall”da dünya ulduzlarının iştirakı ilə keçirilən axşam konsertlərinə ümumilikdə 85 min tamaşaçı gəlib.***

Bu il ötənilki qədər bilet satılıb. Xaricdən alınan biletlərin nisbəti 22 faiz təşkil edib. Ötən illə müqayisədə bu il həftəsonu ərzində yarış məkanına gələnlərin sayında bir qədər azalma müşahidə olunub. Buna səbəb əvvəlcədən iştirakı nəzərdə tutulan britaniyalı ulduz Sem Smitin yarışa çox az vaxtın qaldığı bir ərəfədə xəstələndiyi üçün Bakı konsertini ləğv etməsi olub.

Çox sayda xarici azarkeşin rəğbət göstərdiyi yarışda qələbəni “Mercedes” komandasının pilotu Valtteri Bottas qazanıb. Onu komanda yoldaşı Luis Hamilton və “Ferrari”nin sürücüsü Sebastian Fettel izləyiblər. Bottasın zəfər sevinci ötən il yarışın sonuncu dövrələrində qələbəyə gedərkən yaşadığı uğursuz qəzanın verdiyi kədəri tamamilə unutdurub. Onun qələbəsi tribunalarda əyləşən minlərlə azarkeş tərəfindən böyük coşqu ilə qarşılanıb.

Yarışı izləməyə 74 ölkədən azarkeş gəlib. Bu ölkələr arasında Rusiya, Böyük Britaniya, Avstriya, Hollandiya və Gürcüstan xüsusilə fərqlənib.

BŞH-nin kommersiya şöbəsinin rəhbəri Bülent Özərdim yarışı izləməyə gələnlərin statistik göstəriciləri ilə bağlı bildirib: “Son 4 il ərzində Azərbaycanda Formula 1 yarış həftəsonunun möhtəşəm şəkildə keçirilməsində böyük irəliləyiş əldə etmişik. Avropadan gələn azarkeşlərin sayının artması ilə əsas Formula 1 izləyicilərinin Bakını seçməsi bizi xüsusilə sevindirir. Buna misal olaraq, yarışı izləmək üçün ölkəyə səfər edənlərin sayında 41 faiz artımla Böyük Britaniya, 28 faizlə Avstriyanı və 26 faizlə Hollandiya göstərə bilərik. Bundan başqa, Çin və Türkiyədən gələnlərin sayında da müvafiq olaraq 22 və 11 faiz artım qeydə alınıb. Tribuna biletlərinin hamısı satılıb və cümə günü axşam konsertinin olmamasına, həmçinin Sem Smitin şənbə günü keçirilməsi nəzərdə tutulan çıxışının son anda ləğv olunmasına baxmayaraq, ümumilikdə bilet satışı 2018-ci ildəkinə bərabər olub. Xüsusən gənclər arasında yarışa maraq ilbəil artır və nəticədə hər ötən il yerli azarkeşlərin sıraları daha da genişlənir. Bu, bizi yüksək səviyyədə həvəsləndirir. Düşünürəm ki, hazırda tutduğumuz mövqe olduqca güclüdür və 2020-ci ildə də azarkeşlər üçün daha bir möhtəşəm Formula 1 yarış həftəsonu keçirmək üçün əlimizdən gələni edəcəyik”.

Builki yarış son iki yarış qədər dramatik anlara səhnə olmasa da, Formula 1 azarkeşləri həyəcan dolu anlarla yadda qalan sıralanma turundan və Formula 2 yarışlarından böyük zövq alıblar.

Formula 1 SOCAR Azərbaycan Qran-Prisi tamaşaçıların zövqünə uyğun təklif etdiyi zəngin məzmunlu müxtəlif əyləncə proqramı ilə də avtoidman sevərlərin könüllərini fəth edib. Yarış həftəsonunda dünya musiqisinin məşhur iki ulduzu axşam saatlarında “Baku Crystal Hall”da səhnəyə çıxaraq azarkeşlərə möhtəşəm əyləncə şousu təqdim edib. Şənbə günü sıralanma turundan sonra keçirilən konsertdə Cessi Cey ən sevilən mahnılarını ifa edib, bazar günü isə Kardi B möhtəşəm performansı ilə yarış həftəsonunun bağlanış konsertinə öz damğasını vurub.

Bundan başqa, bu il ilk dəfə olaraq BŞH-nin təşkilatçılığı ilə yarış həftəsonu ərzində “Bakı şəhərinin sədaları” adı altında gecə əyləncə proqramları təşkil olunub. “Elektra Events Hall”da keçirilən proqramda dünyanın məşhur DJ-ləri çıxış ediblər. Aprelin 26-da səhnəyə Ciqan və Mahmut Orhan, ertəsi gün Robin Şulz və ayın 28-də “Lost Frequencies” çıxıb. Biletləri Formula 1 yarışlarından ayrıca satılan bu əyləncə proqramlarında Bakıya Azərbaycan Qran-Prisini izləməyə gələn yüzlərlə xarici avtoidman azarkeşi ilə yanaşı, çox sayda paytaxt sakini də iştirak edib.

## Silverstoun marafona qoşulur



Formula 1 çempionatının Böyük Britaniya Qran-Prisi bundan sonra da Silverstounda keçiriləcək. Tərəflərin əməkdaşlıq barədə bağladıqları yeni saziş 2022-ci ilədək nəzərdə tutulub.

“Motorsport Monday” nəşrinin redaktoru Co Seyvarda istinadla xəbər verir ki, Silverstounda yürüşlər bu mövsümdə sonuncu ola bilər. Əvvəlcə, razılaşma 2026-cı ilədək olan müddətə bağlanılıb. Lakin 2017-ci ildə Britaniya tərəfi maliyyə problemləri ilə bağlı sazişin vaxtından əvvəl pozulması variantını aktivləşdirib.

Yeni razılaşmanın şərtləri hələ açıqlanmayıb. Bununla yanaşı, Seyvard əmindir ki, tərəflər bütün detalları qabaqcadan təfsilatı ilə müzakirə edərək razılığa gəliblər.

Qeyd edək ki, Silverstounda yürüş Formula 1 çempionatının 1950-ci ildə təşkil olunmuş ən birinci mövsümündən bəri keçirilir.

# FUTBOL

## "Neftçi" bu il də birinci ola bilmədi




Futbol üzrə Topaz Premyer Liqasının 2018-2019-cu il mövsümünün çempionu müəyyənləşib. "Qarabağ" çempionatın 27-ci turunda Tofiq Bəhramov adına Respublika Stadionunda "Səbail" klubunu 4:0 hesabı ilə məğlub edib. Bununla komanda xallarının sayını 63-ə çatdıraraq Azərbaycan çempionu adını qazanıb.

Ağdamlıların turnir cədvəlində əsas izləyicisi "Neftçi" səfərdə "Qəbələ"ni məğlub (3:1) etməsinə baxmayaraq, xal hesabında "Qarabağ"a çata bilməyib. Komandalar arasındakı fərq 5 xaldı.

"Zirə" isə səfərdə "Keşlə"yə qalib gəlib - 3:1. Tura "Sumqayıt" və "Sabah" komandalarının oyunu ilə yekun vurulub. Sumqayıtlılar 1:0 hesablı qələbə ilə Premyer Liqada yerini qoruyublar. "Keşlə" isə idman prinsiplərinə əsasən, I diviziona yuvarlanıb. Əgər aşağı liqa təmsilçilərindən hər hansı biri lisenziya tələblərinə əməl etsə, paytaxt klubu Premyer Liqa ilə vidalaşacaq.

Qeyd edək ki, sonuncu turun matçları mayın 11-də baş tutacaq.

## *Finalda Avropa nəzərə alındı*

Avropa Liqasının finalının başlama saatı müəyyənləşib.

Görüş Bakı vaxtı ilə gecə saat 23.00-da (Avropa vaxtı ilə 21.00) başlanacaq. Bu qərar finala bütün Avropa ölkələrinin daha rahat vaxtda baxması üçün verilib. Qeyd edək ki, artıq UEFA-nın rəsmi saytı da matçın göstərilən vaxtda başlanacağını təsdiqləyib.

* * *

Mayın 29-da Bakı Olimpiya Stadionunda (BOS) keçiriləcək Avropa Liqasının final oyunu ilə əlaqədar UEFA nümayəndələri paytaxtımıza növbəti dəfə səfər ediblər.




Budəfəki səfər BOS-da ot örtüyünün vəziyyəti ilə tanışlıq məqsədi daşıyıb. Mütəxəssislər ot örtüyünə baxış keçirdikdən sonra hazırkı vəziyyəti müsbət qiymətləndiriblər. UEFA Avropa Liqasının final oyununun təşkili ilə əlaqədar Əməliyyat Qrupunun stadionda yerləşən ofisində qitə futbol qurumunu təmsil edən mütəxəssislərlə AFFA-nın baş katibi Elxan Məmmədovun və Əməliyyat Qrupu üzvlərinin görüşü keçirilib, fikir mübadiləsi aparılıb. Əməliyyat Qrupunda fəaliyyət göstərən mütəxəssislər final oyununadək qalan müddət ərzində BOS-un ot örtüyünü yüksək səviyyədə saxlamaq üçün müvafiq işlərin görüldüyünü bildirib, bunun üçün xüsusi avadanlıqlardan istifadə olunduğunu qeyd ediblər.

## *Qurban Qurbanov: "Hər çempionluq bizim üçün əzizdir"*

Topaz Premyer Liqasının XXVIII turuna yekun vurulub. "Qarabağ" doğma azarkeşlər önündə "Səbail" klubu ilə münasibətlərinə aydınlıq gətirib. Meydan sahiblərinin üstünlüyü ilə keçən matç onların 4:0 hesablı qələbəsi ilə başa çatıb. Qələbə sayəsində "Qarabağ" tarixində ardıcıl 6-cı, ümumilikdə isə 7-ci dəfə çempion adını qazanıb. Matçdan sonra "Qarabağ" klubunun baş məşqçisi Qurban Qurbanov jurnalistlər üçün mətbuat konfransı keçirib.

***- Oyun haqda fikirlərinizi bilmək istərdik.***

- Əvvəlcə, futbolçularımızı, rəhbərliyimizi, azarkeşlərimizi təbrik etmək istəyirəm. Sonadək bizimlə oldular. Sonda hər şey bizim üçün uğurlu oldu. Buna görə çox şadam. Liderliyi ələ keçirdik, sonadək qoruduq. Aftandil Hacıyevi də təbrik etmək istəyirəm ki, ilk medalı, avrokuboklara vəsiqəni qazandı. Az bir müddətdə çox iş gördülər.

***- Son tur formal xarakter daşıyacaq. "Neftçi" ilə matçda əsas heyətlə oynamağı düşünürsünüz?***

- Bəli, formal xarakter olmasını düşünə bilərik. Ancaq maksimum hazır olmağa çalışacağıq. Ola bilər ki, futbolçularda arxayınlıq olsun. Ancaq azarkeşlər üçün yaxşı oyun göstərməyə çalışacağıq. Heyətdə dəyişikliklər mümkündür. Ancaq ümumi işimizə məsuliyyətlə yanaşacağıq.

***- UEFA Çempionlar Liqası öncəsi komandaya transferlər olacaq?***

- Açığı, həmişə dediyim kimi, yeni futbolçularla danışıqlar gedir. İstərdim ki, komandaya bir neçə futbolçu cəlb edək. Ancaq çətindir. Gedəcək futbolçuların siyahısı çox olmayacaq. Hər bir futbolçu bizim üçün dəyərlidir. Bəzi amillərə görə bir neçə futbolçu klubu tərk edəcək. Yaxın vaxtlarda buna aydınlıq gələcək.




***- Reynaldo Silvanın "Qarabağ"dan ayrılaraq "Neftçi" klubu ilə danışıqlar apardığı deyilir. Bu, nə dərəcədə doğrudur?***

- Belə bir məlumatım yoxdur. Reynaldo ilə "6 ay +1 il" şərtilə müqaviləmiz var. Hələ heç bir fikir bildirə bilmərəm. Onun "Neftçi" ilə danışıqlarından xəbərim yoxdur.

***- "Qarabağ"da ardıcıl 6-cı dəfə ölkə çempionu oldunuz. Hansı çempionluq sizin üçün xüsusi sayılır?***

- İstədiyimiz nöqtəyə çatmaq asandır, ancaq orada qalmaq çətindir. Yəni çempionluğu qorumaq daha çətindir. Hər çempionluq bizim üçün əzizdir. Çünki hər il əziyyət çəkirik. Hamını razı salmağımız lazımdır. "Neftçi"yə də çempionluq arzulamaq istərdim. Bu mövsüm onlar tam fərqli oyun göstərdilər. "Neftçi" çempionluğa çox istəkli idi. Ümumilikdə bu il ölkə çempionatı maraqlı oldu.

***- Mövsümün ilk yarısını və sonrakını müqayisə etsək, millidə işləmək və avroliqanın qrupunda çıxış etməyiniz sizə tam motivasiya olmağa maneçilik törətmirdi ki?***

- Belə deməzdim. Əsas mövsümün sonunda komandanın hansı vəziyyətdə olmasıdır. Mövsümün ilk yarısında bütün klublar fəal olur. Həm də ilk dövrədə texniki məğlubiyyətimiz oldu və qış fasiləsinə 3 xal geridə çıxdıq. Bu, böyük fərq deyildi. İkinci yarıda daha yaxşı çıxış etməyimiz milli komandada olmağımla bağlı deyildi. Futbolçular meydana tam rahat çıxdılar və hamı fikrini sırf çempionata yönəltdi. Antalyada çox yaxşı hazırlıq keçdik.

***- "Qarabağ"da yetirmələriniz olan Aftandil Hacıyev çempionatda medalçı oldu, Ayxan Abbasov isə ölkə kubokunun finalına vəsiqə qazandı. Gənc mütəxəssislərin işinə və onların komandalarına necə qiymət verərdiniz?***

- Hər iki məşqçi haqda fikrim, əlbəttə, çox müsbətdir. Həm də insan kimi yaxşıdırlar. Onlar peşələrini sevir və işlərinə məsuliyyətlə yanaşırlar. Hər ikisinə uğurlar arzulayıram. Düzdür, "Qarabağ"da son illərində oynayırdılar, ancaq iş saatlarından faydalı yararlanırdılar. Onların uğuru əziyyətlərinin bəhrəsidir. Gələcəkdə bu məşqçilərin komandalarına qarşı oynamaq bizim üçün daha çətin olacaq. Düzdür, "Sumqayıt"da qış fasiləsindən sonra eniş oldu, ancaq sonda özünə gəldi. Aftandil Hacıyevin komandasında futbolçular bir-birini tamamlayırdılar.

***- Komandanın uğurunda böyük rolu olan kapitan Rəşad Sadıqovun "Qarabağ"da gələcək taleyi necə olacaq? O, futbolçu karyerasını davam etdirəcək?***

- Rəşad bu komanda üçün böyük qüvvə və kapitandır. Qışdan bu yana ikinci cavanlığını qaytardı, öz çıxışını daha da yaxşılaşdırdı. Bu komanda üçün nə qədər dəyərli olduğunu göstərdi. Rəşadın hələ oynamağa gücü var. O, bu komanda üçün vacib futbolçudur.

***Rahib Səmədov***

## *Transfer xəbərləri*

"Real" "Tottenhem"in futbolçusu Kristian Erikseni heyətinə cəlb etməyə yaxındır. "Kral klubu" 27 yaşlı yarımmüdafiəçi ilə razılıq əldə edib. Qeyd edək ki, danimarkalı oyunçu "Bavariya"nın da diqqət mərkəzindədir. Lakin futbolçunun 2020-ci ilədək London klubu ilə müqaviləsi var.

Xatırladaq ki, 2013-cü ildən "Tottenhem"in formasını geyinən Kristian Eriksen bu mövsüm komandasının




heyətində 33 oyuna çıxaraq 7 qol vurub və 12 qol ötürməsi edib.

* * *

"Real" yeni mövsüm üçün növbəti transferini həyata keçirmək üzrədir. Madrid klubu "Ayntraxt"ın futbolçusu Luka Yoviçin transferi üçün razılıq əldə edib. Razılığa əsasən, La Liqa təmsilçisi Almaniya klubuna 60 milyon avro təzminat ödəyəcək. 21 yaşlı hücumçu ilə 6 illik müqavilə imzalanacaq.

* * *

Baş məşqçi Zinəddin Zidan yarımmüdafiəçi Luka Modriçdən imtina etmək istəyir. Buna səbəb 33 yaşlı yarımmüdafiəçinin son günlərdə keçirdiyi qarşılaşmalarda zəif oyun nümayiş etdirməsidir. Fransalı mütəxəssis Madrid klubunun yarımmüdafiəçidən faydalana biləcəyinə şübhə ilə yanaşır.




Qeyd edək ki, yarımmüdafiəçi ilə klubun müqaviləsi 2020-ci ilin yayında başa çatır. Hazırda xorvatiyalı futbolçunun transfer dəyəri 25 milyon avrodur. Luka Modriç cari mövsümdə "Real"ın heyətində keçirdiyi 44 oyunda dörd qol vurub və səkkiz məhsuldar ötürmə edib.

* * *

"Ayaks" futbolçusu Nikolas Talyafiko ilə yeni müqavilə imzalayıb.

26 yaşlı müdafiəçi ilə müqavilənin müddəti 2022-ci ilin iyununa kimi uzadılıb. Qeyd edək ki, N.Talyafiko bu mövsüm 47 matçda 5 qol vurub, 6 qolun ötürməsini verib.

* * *

"Yuventus" futbolçusu Paulo Dibalanı satmağa qərar verib.

Argentinalı hücumçunun bu qərardan məmnun olduğu bildirilib. Turin təmsilçisinin 25 yaşlı oyunçuya 80 milyon avro qiymət qoyduğu vurğulanıb. Qeyd edək ki, Dibala bu mövsüm 38 matçda 10 qol vurub, 4 qolun ötürməsini verib.




## Klublarımız mübarizəyə birinci təsnifat mərhələsindən başlayacaq

Avrokubokların 2019/2020 mövsümünün təqvimi açıqlanıb.

Çempionlar Liqası və Avropa Liqasının 1-2-ci təsnifat mərhələsinin püşkü iyunun 18-də atılacaq. Bununla da klublarımız ilk rəqibini tanıyacaq.Ölkəmizi Çempionlar Liqasında təmsil edəcək "Qarabağ" mübarizəyə 1-ci təsnifat mərhələsindən başlayacaq. Bu mərhələnin ilk oyunları iyulun 9-10-u, cavab matçları 16-17-də keçiriləcək.

Avropa Liqasında iştirak edəcək "Neftçi" və "Səbail" də yarışa ilk təsnifat mərhələsindən start verəcək. Bu mərhələnin oyunları isə iyulun 11-18-də keçiriləcək. Azərbaycan kubokunun qalibi ("Qəbələ" və ya "Sumqayıt") mübarizəyə 2-ci təsnifat mərhələsindən qoşulacaq. Bu mərhələnin matçları iyulun 25-də və avqustun 1-də keçiriləcək.

## Təşkilatçılar stadionu qayığa bənzədəcəklər

Futbol üzrə 2022-ci il dünya çempionatının matçlarının keçiriləcəyi "Əl-Vakra" stadionu mayın 16-da Qətər Əmiri Kubokundan əvvəl açılacaq. 40 min tamaşaçı tutan bu stadion dünya çempionatının dördəbir final matçlarını qəbul edəcək. Dizaynerlərin niyyətinə görə arena ənənəvi ərəb qayığı formasında olacaq.



Bildirilir ki, stadionun innovasiyalı sərinləşdirmə sistemi və mütəhərrik damı olacaq. Dünya çempionatından sonra arenanın tutumu azaldılacaq və 20 min nəfərə çatdırılacaq.

Dünya çempionatı noyabrın 21-dən dekabrın 18-dək Qətərin 7 şəhərində: Doha, Lusail, Əl-Vakra, Əl-Xore, Ər-Rəyyan, Üm-Salal və Əş-Şamal şəhərlərində keçiriləcək. Həlelik yalnız bir arena - Dohada 40 min tamaşaçı tutan "Xəlifə" arenası istifadəyə verilib.

## Bütün dünya Kasilyasla maraqlanır

Portuqaliyanın "Portu" komandasının infarkt keçirən qapıçısı İker Kasilyasın xəstəxanadan çıxacağı tarix bəlli olub. 37 yaşlı qolkiper mayın 4-də xəstəxanadan evə buraxılacaq. Təcrübəli oyunçunun yaxşı vəziyyətdə olduğu bildirilib. Kasilyasın infarktdan sonra bərpa müddəti 2-3 ay çəkəcək. İspaniyalı oyunçunun karyerasına davam edib-etməyəcəyi hələ ki bəlli deyil. Qeyd edək ki, İspaniya millisinin sabiq qapçısı olan Kasilyas 1998-2015-ci illərdə vətənində "Real Madrid"in formasını geyinib. O, 4 ildir "Portu"da çıxış edir.

*Bölgə idmanı*

## Qubada keçirilən marafonda 500 nəfərdən çox iştirakçı yarışıb

Mayın 5-də Quba şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan marafonun qalibləri mükafatlandırılıb.




Marafonda iştirak edən 500 nəfərdən çox iştirakçı 5 kilometr məsafəni qət edib.

Bütün yaş kateqoriyalarından olan iştirakçıların yürüşü ulu öndər Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsi önündə başa çatıb.

Marafonun qalibləri Quba Rayon İcra Hakimiyyətinin hədiyyələri və kubokları ilə mükafatlandırılıblar.

* * *

İsmayıllıda gənclər və idman idarəsi və təhsil şöbəsinin birgə təşkilatçılığı, rayon icra hakimiyyətinin dəstəyi ilə məktəblilər arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən yeniyetmələrin XI ümumrayon spartakiadasına daxil olan marafon keçirilib.

Marafon yarışında şəhər 1, 2, 3, 4, 5, 6 və 7 nömrəli, Diyallı, Cülyan, Talıstan kənd tam orta məktəblərindən, İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci və Peşə Tədris Mərkəzindən 100 nəfər məktəbli və tələbə iştirak edib.

Yarış başlanmazdan əvvəl çıxış edənlər müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, türk dünyasının böyük oğlu ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti barədə ətraflı danışıb, ulu öndərin gənclər və idman siyasətinin uğurlu nəticələrindən bəhs ediblər.

Sonra yarışa start verilib.

Rayondakı Şəhidlər xiyabanının önündən start götürən marafon ümummilli lider Heydər Əliyevin abidəsi önünə qədər davam edib.

Marafonda şəhər 5 və 2 nömrəli tam orta məktəblərin şagirdləri Samir Həsənov və Elşən Abbaszadə müvafiq olaraq I və II yerlərə, İsmayıllı Dövlət Humanitar və Texnologiya Kollecinin tələbəsi Yusif Məmmədov III yerə çıxıblar.

Sonda hər üç yerin qalibi gənclər və idman idarəsinin diplom və qiymətli hədiyyələri ilə təltif olunub.

* * *

Siyəzəndə ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə keçirilən şahmat üzrə yeniyetmə oğlanlar və qızlar arasında rayon birinciliyinin qalibləri müəyyənləşib.

Rayonda şahmat idman növünün inkişaf etdirilməsi, yeniyetmələrin intellektual səviyyəsinin yüksəldilməsi və asudə vaxtlarının səmərəli təşkil olunması məqsədi daşıyan yarışda 40-a yaxın yeniyetmə şahmatçı mübarizə aparıb.

Gənclər Mərkəzində iki gün davam edən turnirdə oğlanlar arasında Cahid Allahverdiyev I,



Muhamməd Paşazadə II, Amid Allahverdiyev isə III yeri qazanıb. Qızlar arasında Nuray Ağayeva, Könül Dadaşova və Məryəm Qurbanlı müvafiq olaraq ilk üç yeri tutublar.

Yarışın qalibləri Gənclər və İdman İdarəsi tərəfindən fəxri fərman, medal və qiymətli hədiyyələrlə təltif olunublar.

*Yubiley*

## Qubad Cəbrayılov-80

Veteran idmançı, Əməkdar məşqçi, təcrübəli pedaqoq Qubad Cəbrayılovun 80 yaşı tamam olur.

Qubad Cəbrayılov 1939-cu ilin aprel ayının 15-də Masallı rayonunun Ərkivan qəsəbəsində anadan olub. Qubad müəllim C.Cabbarlı adına kənd orta məktəbini bitirdikdən 1958-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Pedaqoji Universiteti) bədən tərbiyəsi fakültəsinə qəbul olub. Bir ildən sonra 1959-cu ildə həmin fakültə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna birləşdirilib. Tələbəlik illərində o, "Burevestnik" Könüllü İdman Cəmiyyətində məşqçi kimi fəaliyyət göstərib. 1963-1967-ci illərdə ağır atletika üzrə yüngül çəkidə respublika rekordçusu və çempionu olub.



Qubad müəllim ikinci ali təhsilini Azərbaycan Politexnik İnstitutunda alıb. O, 1964-1970-ci illərdə həmin ali təhsil ocağının nəqliyyat fakültəsinin axşam şöbəsində oxuyub.

Qubad Cəbrayılov 1958-1960-cı illərdə ağırlıqqaldırma respublika yığma komandasının üzvü kimi müxtəlif yarışlarda respublikamızın idman şərəfini layiqincə qoruyub. O, 1963-1966-cı illər ərzində "Dinamo" Könüllü İdman Cəmiyyətində məşqçilik edib.

1965-ci ildə idman ustası normasını yerinə yetirən mütəxəssis 1966-cı ildə Azərbaycan Politexnik İnstitutunun "Bədən tərbiyəsi" kafedrasında müəllim işləyib. 1973-cü ildən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) müəllim, 1984-cü ildən baş müəllim, 2003-cü ildən "İdmanın təkmübarizlik növləri" kafedrasında dosent vəzifəsində çalışır.

Qubad Cəbrayılov məşqçilik etdiyi müddət ərzində xeyli sayda idman ustası, ilk beynəlxalq dərəcəli idmançı hazırlayıb. Gənclər və İdman Nazirliyi tərəfindən 1996-cı ildə ona "Azərbaycan Respublikasının əməkdar məşqçisi" adı verilib. 1998-ci ildən beynəlxalq dərəcəli hakimdir və ağırlıqqaldırma üzrə müxtəlif ölkələrdə keçirilmiş beynəlxalq turnirlərdə hakimlik edib. Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra Qubad müəllimin yetirmələri müxtəlif beynəlxalq yarışlarda çıxış edərək Avropa, dünya çempionu, qitə və dünya rekordçusu olublar və mükafatalayiq yerlər tutublar.

Qubad müəllim hazırda ADBTİA-nin "İdmanın təkmübarizlik növləri" kafedrasında ağırlıqqaldırma fənni üzrə ixtisas fənnindən dərs deyir. O, 50-yə yaxın dərs vəsaitinin və elmi əsərlərin müəllifidir. 2011-ci ildə "Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi" adı ilə təltif olunub.

Qubad müəllimi yubileyi münasibətilə təbrik edir, cansağlığı arzulayırıq.



*"Olimpiya dünyası" qəzetinin arxivindən*

**("Olimpiya dünyası" qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən)**

## Həftəlik idman qoroskopu

**Qoç**
Enerjiniz çoxdur. Ondan düzgün istifadə edin. Fiziki hazırlığınızı artırmaq üçün münasib vaxtdır. Bu həftə səfər etməyiniz yaxşı olardı.

**Buğa**
Bu bürc altında doğulanlar da həftə ərzində fəal olacaqlar. Məşqlərin ağırlığı sizi qorxutmasın. Sınaqlardan üzüağ çıxacaqsınız. Əgər hər hansı bir idman növü ilə yenicə məşğul olmağa başlamısınızsa, seçdiyiniz idman növünün xarakterinizə uyğun olub-olmadığını bir daha ölçüb-biçin.

**Əkizlər**
Həftənin birinci yarısı o qədər də uğurlu olmayacaq. Narahat olmağa dəyməz. İdman dözümlülüyü sevir. Güc toplayın və inamla qələbəyə doğru addımlayın. Dözümlülüyünüz sayəsində istədiyiniz nəticələri əldə edəcəksiniz.

**Xərçəng**
Ulduzlar xərçənglərə idmanda ayıq-sayıq olmağı məsləhət görür. Gərgin məşqlər üzücü ola bilər. Sağlamlığınızın qeydinə qalın. Üstünlüyü səhər məşqlərinə verin.

**Şir**
İnamla mübarizə aparın. Bu, sizin həftənizdir. Şir bürcü altında doğulanlar bugünlərdə idman sahəsində ən böyük nailiyyətlərini qazana bilərlər. Diqqətli olun. Dostlarınızla münasibətlərinizi qaydaya qoyun. Birgə məşqlər sizin xeyrinizə ola bilər.

**Qız**
Deyilənlərə əhəmiyyət verməyin. Bir qədər səbirli və məşqlərinizdə diqqətli olun. Ulduzlar həftənin ikinci yarısının sizin üçün uğurlu olacağını deyir. Səhər qaçışı ilə məşğul olmaq sizə böyük fayda verə bilər.

**Tərəzi**
Tərəddüd etməyin. Seçiminiz düzgündür. Sadəcə, təmkinli olmağınız gərəkdir. İdmanla məşğul olmaq sizin xeyrinizədir. Sizə yüngül idman hərəkətləri etmək də məsləhət görülür.

**Əqrəb**
Bu bürc altında doğulanlar bu həftə gərgin məşqlərdən bir qədər qaçsalar, yaxşı olar. Nəzəriyyəyə üstünlük verməyiniz daha məqsədəuyğundur. Həftə ərzində nəzəri biliklərinizi artırmağa çalışın.

**Oxatan**
Münasibətlərinizi tənzimləmək üçün əlverişli vaxtdır. Kollektivlə mehriban olun. Bu münasibətlər fəaliyyətinizə təsir edir. Həftənin birinci yarısı sizin üçün daha uğurlu sayılır.

**Oğlaq**
Fiziki hazırlığınızın səviyyəsindən zövq alacaqsınız. Məşqlərə elə bu cür də davam edin. Ətrafdakıların diqqətini cəlb edəcəksiniz. İntellektual idman növləri ilə məşğul olanlar uğur qazanacaqlar.

**Dolça**
Bu bürc altında doğulanlar həftə ərzində fəal olcaqlar. İstədiyiniz nəticələri əldə edə bilməməyiniz sizi narahat etməsin. Əsas məsələ odur ki, sevdiyiniz peşə ilə məşğul olursunuz. Asudə vaxtınızı səmərəli keçirməyə çalışın.

**Balıqlar**
Bu həftə səfərə çıxsanız, özünüzə xoş ovqat bəxş edəcəksiniz. Bununla belə, ulduzlar idmandan ayrılmamağınızı da məsləhət görür. Məşqlər zamanı ehtiyatlı olmağınız gərəkdir. Sağlamlığınızı bir an belə unutmayın.

## Daha bir "əfsanə" futbolu tərk edir

İspaniya milli komandasının və "Barselona"nın sabiq yarımmüdafiəçisi Xavi Ernandes mövsümün sonunda karyerasını başa vuracaq.

39 yaşlı futbolçu Qətərin "Əl-Sədd" klubu ilə müqaviləsini uzatmayacağını və karyerasını mövsümün sonunda başa vuracağını deyib. Xavi bundan sonra məşqçi kimi fəaliyyət göstərmək istədiyini vurğulayıb.

Qeyd edək ki, Xavi 1998-2015-ci illərdə yetirməsi olduğu "Barselona"da çıxış edib.

olimpnews.az - sizin saytınız







## Useyn Boltun rekordunu qırdı

"Blekbern"ün futbolçusu Tayler Meqloyr futbol tarixinin ən sürətli oyunçusu kimi qəbul edilib.

20 yaşlı futbolçu "Uiqan"la qarşılaşmada 1 saniyə ərzində 10,6 metr sürət yığıb. Bu göstərici bir müddət əvvəl Mbappenin göstərdiyi sürətdən çoxdur - 10,55.

Taylerin sürəti əfsanəvi yamaykalı atlet Useyn Boltun orta sürətini də üstələyir. Bolt 2009-cu ildə Berlində dünya rekordu müəyyənləşdirmişdi. Həmin vaxt onun orta sürəti saniyədə 10,44 metr, maksimal sürəti isə saniyədə 12,42 metr olmuşdu.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19